GÜLYANAQ FƏRZƏLİYEVA



# NAXÇIVAN İFAÇILIQ MƏKTƏBİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

**GÜLYANAQ FƏRZƏLİYEVA**

# NAXÇIVAN İFAÇILIQ MƏKTƏBİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

*Fənnin kodu: İPF-B02- Vokal ifaçılığı*
*İxtisas kodu: 050304-“Solo oxuma”*

*Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 03 iyul 2020-ci il tarixli iclasının qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol №10)*

**NAXÇIVAN-2021**

**Elmi redaktor:** **İnara Məhərrəmova**
*Sənətşünaslıq üzrə elmlər doktoru,dosent*

**Rəyçilər:** **İsmayıl Mürsəlov**
*Pedaqogika üzrə fəlsəfə doktoru*

**Mübariz Əsgərov**
*Azərbaycan Respublikasının Əməkdar artisti, dosent*

**Tərtib edən:** **GÜLYANAQ FƏRZƏLİYEVA**

# MÜNDƏRİCAT


**Giriş**.................................................................................4

**Elburus Mehdiyev**.........................................................26

**Məmməd Nəsirbəyov**..................................................31

**Yaşar Səfərov**...............................................................40

**Əli Muradov**...................................................................49

**Həsənağa Qurbanov**......................................................53

**Afət Novruzov**................................................................60

**Nazim Quliyev**...............................................................64

**Rəfail Kərimov**...............................................................69

**Nuriyyə Hüseynova**.......................................................72

**Nəticə**...............................................................................81

**Ədəbiyyat siyahısı**.........................................................88

# GİRİŞ

Azərbaycan şərq və türk dünyasının ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycanda milli mədəniyyətimizin yaranmasının min illərlə tarixi elmi araşdırmalarda geniş şəkildə öz əksini tapmışdır. Qədim və zəngin mədəni irsimizin mühüm tərkib hissələrindən biri də musiqi mədəniyyətidir ki, Azərbaycanda milli musiqi sənətinin tarixini özündə yaşadan Qobustan, Gəmiqaya rəsmlərində musiqi-rəqs ifasının vəhdətini simvolizə edən qayaüstü rəsmlər bu qədim diyarda musiqi sənətinin min illərlə tarixini özündə qoruyub saxlamaqla günümüzə çatdırmışdır. Bu aspektdən yanaşan sənətşünas Əli Qəhrəmanov yazır: “Azərbaycan xalq musiqisinin tarixi Azərbaycan xalqının tarixi qədər qədim və zəngindir. Xalqımızın musiqi mədəniyyətinin tarixini tədqiq edərkən ilk öncə gözümüz önündə Gəmiqaya, Qobustan təsvirləri, əmək nəğmələri, qədim insanların ovçuluğu, inamları, xalq şənlikləri, qədim el havaları, saray musiqisi əks olunur. Onlar daş yaddaşa çevrilərək əbədiləşmiş, günümüzə daş “dilində” gəlib çatmışlar. Musiqinin yaranması, inkişafı tarixi hadisələrlə bağlı olmuş, əsl sənət nümunələri tarixin keşməkeşli yollarında bir yaşam mücadiləsi adlamış, bütün cəhdlərə sinə gərərək dözmüş və bu günkü mədəni dünyamıza gəlib çata bilmişdir”. Azərbaycan musiqi sənətinin mühüm tərkib hissələrindən birini də ifaçılıq sənəti təşkil edir ki, uzun

tarixi yol keçən ifaçılıq sənəti zamanla vokal ifaçılıq sənətinin zəngin, ənənələrə dayanan müasir inkişafına qovuşmuşdur. Tədqiqatlarda da əksini tapdığı kimi vokal ifaçılıq sənətinin inkişafında aşıq musiqisinin əhəmiyyətli yeri danılmazdır. Zəngin tarixi inkişaf yolu keçən aşıq musiqisi, aşıqların ifa etdikləri muqisi-rəqs-şeirin vəh-dətindən ibarət olan bu sənət növü orta əsrlərdə güclü inkişaf yolu keçmiş, cilalanmış, köklü ənənələrini davam etdirirərək günümüzə qədər gəlib çatmışdır. Bu səpkili fikirlərdən birində deyilir: "...Azərbaycan klassik musiqisinin bünövrəsini təşkil edən aşıq musiqisi və muğam sənətidir" (4, s. 17). Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra milli musiqimizin örnək növü olan aşıq sənətinə xüsusi diqqət yetirilmiş, bu sahədə görülən ardıcıl tədbirlər nəticəsində aşıq sənətinin qorunması, yaşadılması və gələcək nəsillərə çatdırılması istiqamətində dövlət proqramları həyata keçirilmişdir.

Azərbaycanın, eləcə də bəşər sivilizasiyasının ən qədim yaşayış məskənlərindən biri olan, beş min illik şəhər mədəniyyətinə, etnomədəni irsə sahib olan Naxçıvanda da milli musiqi sənətinin uzun və şərəfli inkişaf yolu mövcuddur. Gəmiqaya rəsmlərində tarixin yadigarı kimi günümüzə qədər qorunub saxlanan, musiqi və rəqsin harmoniyasını ifadə edən qayaüstü işarələr bu diyarda musiqiyə, rəqs sənətinə verilən dəyərin ifadəsi olmaqla yanaşı Naxçıvanda musiqi sənətinin qədim tarixi köklərini də təsdiq etməkdədir. Gəmiqaya rəsmlərindəki

musiqi və rəqs səhnələrindən ibarət rəsmlər Naxçıvanda musiqi mədəniyyətinin qədim tarixindən xəbər verməkdədir. Bu haqda mənbələrdə qeyd olunur: "Aşkar olunmuş rəsmlər arasında ovçuların ox və kamanla, kəməndlə və s. ilə silahlandığı ov səhnələri, rəqs səhnələri diqqəti cəlb edir" (12, s. 164). Gəmiqaya rəsmlərindəki rəqs səhnələrində musiqi və rəqsin harmonik vəhdətindən bəhs edən bir araşdırmada vurğulanır ki, "...Naxçıvan Muxtar Respublikasında Gəmiqaya adlanan ərazidə və digər ərazilərdə aşkar edilmiş qayaüstü rəsm əsərləri bu fikri təsdiqləməklə yanaşı, oxuma-ifaçılıq mədəniyyəti tariximizin daha da qədim dövrə aid olduğunu göstərir" (4, s. 15). Gəmiqaya rəsmlərində eləcə də digər ərazilərdə aşkar edilən maddi-mədəniyyət nümunələrində də aşağıdakı fikirlər təsdiqini tapır: "Naxçıvan Muxtar Respublikasında Gəmiqaya adlanan ərazidə və digər ərazilərdə aşkar edilmiş qayaüstü rəsm əsərləri bu fikri təsdiqləməklə yanaşı, oxuma-ifaçılıq mədəniyyəti tariximizin daha da qədim dövrə aid olduğunu göztərir" (4, s. 15).

Ümumiləşdirərək deyə bilərik ki, Naxçıvanda köklü ənənələr üzərində təşəkkül tapıb inkişaf edən musiqi mədəniyyəti, ifaçılıq sənətinin yaranması, inkişaf dinamikası, buna səbəb olan tarixi-siyasi şərait nəzərə alındıqda bu qədim türk yurdunda ifaçılıq sənətinin yaranması və buna müvafiq şəraiti bir neçə aspektdən dəyərləndirə bilərik. Nəinki Naxçıvanda, Azərbaycanda ümumilikdə türk dünyası və Yaxın Şərqdə ifaçılıq sənətinin təşəkkü-

lündəki əsas istiqamətlərdən biri aşıq yaradıcılığı olmuşdur və bu gerçək çoxsaylı elmi tədqiqatlarda təsdiqini tapmışdır. Digər bir istiqamət köklü təməllər üzərində inkişaf edib günümüzə qədər gəlib çatan, orta əsrlərdə saray mühitində pərvazlanan Şərq musiqiçiliyidir. Belə ki, xalq yaddaşında belə "Şərq üçlüyü" kimi yaddaşlaşan, XIX əsrin sonları, XX əsrin əvvəllərində formaca təkmilləşən bu ifaçılıq ənənəsi üzərindən inkişaf edərək kodlaşan ifaçılıq mədəniyyəti zamanla orkestrlər, ansambllar, xor kollektivlərinin və s. yaradılmasında təməl daş olmuşdur. Məhz Naxçıvan musiqi mədəniyyəti, Naxçıvan musiqi sənətinin inkişafı və ifaçılığın, vokal ifaçılığın yaranması, təşəkkül dövrü də bu istiqamətlərdə dəyərləndirilməlidir. İfaçılıq sənətinin formalaşmasında əhəmiyyətli istiqamətlərdən biri də el şənlikləri, mərasim və bayramların, habelə dini ayinlərin icrasından keçir. Bu cür mərasimlərdə harmonik musiqinin, ahəngdar ritmin paralelində rəqs, şəbədə, oyun ritualları ilə birlikdə zümzümələrin edilməsi, zamanla ahəngdar musiqi parçalarının proqramlı şəkildə ifa edilməsi ifaçılıq sənətinin bünövrəsində duran gələnəkdir. Məsələyə məhz bu aspektdən yanaşan zəhmətkeş tədqiqatçı Rəfail Kərimov yazır ki, "İnsanların heca ilə, sonralar isə avazla nə isə ifa etmə (oxuma) tarixi çox qədimdir. Belə ki, indiyədək musiqi elminin müxtəlif sahələrini əhatə edən yazılı mənbələrdə "oxumağın" bir ifaçılıq sənəti kimi formalaşma tarixini və ya məkanını təsdiq edən dəqiq

yazılı bir məlumat yoxdur. Yalnız müxtəlif mənbələrdən dolayısıyla məlum olur ki, ibtidai insanlar rəqs etməyə çox meyilli olduqlarından ilk sözləri tələffüz edər-etməz rəqslərini müəyyən intonasiyalı heca və sözlərlə müşaiyyət etdirmişlər" (5, s. 14). Müəllif fərqli fikirləri ümumiləşdirərək onu da yazır ki, "Azərbaycan klassik musiqisinin bünövrəsini təşkil edən aşıq musiqisi və muğam sənətidir" (5, s. 17). İfaçılıq sənətinin yaranması, inkişaf yolu haqqında tədqiqatçı Nazim Quliyev qeyd edir: "Qeyd etdiyimiz kimi ifaçılıq sənəti də, bəstəkarlıq sənəti təki el şənliklərində, saray məclislərində, konsert salonlarında püxtələşmiş, bu gün də inkişaf etməkdədir" (9, s. 24). N.Quliyevin qeyd etdiyi el şənlikləri-saray-konsert salonu ardıcıllığı əslində ifaçılıq sənətinin keçdiyi tarixi inkişaf yolunun xülasəsi xarakterindədir.

Tarixən musiqi sənətində ifaçılıq mədəniyyətinin aparıcı sahələrindən birini də aşıq ifaçılığı təşkil etmişdir. Hələ orta əsrlərdə Naxçıvan torpağının yetirməsi olan görkəmli ifaçılar, musiqiçilər olmuşdur ki, onların sənəti haqqında tarixi qaynaqlarda da məlumat verilir. Belə ki, "Qaynaqlar təsdiq edir ki, bu torpağın yetirmələri olan tanınmış musiqçilər Səfəvi, Osmanlı və başqa Şərq hökmdarlarının saraylarında musiqi məclislərində iştirak etmişdir. Məsələn, Osmanlı hökmdarı IV Muradın sarayında fəaliyyət göstərən çartar çalanların ən şöhrətlisi naxçıvanlı Murad ağa olmuşdur" (11, s. 53).

Bu ifaçı sənətkarlar içərisində aşıqların da yeri danılmazdır. Naxçıvanda aşıq sənətinin inkişafında önəmli yeri XVIII əsrdə yaşamış Ağ Aşıq Allahverdi Kosacanlı tutmaqdadır. Ağ Aşığın yaratdığı "Koroğlu", "Misri", "Şərili" saz havaları bu gündə dillər əzbəridir. Ağ Aşıqdan sonra Şərurlu Aşıq Cəlil, Aşıq Nəcəfalı, Aşıq Abbas Dəhri, Aşıq Nabat, Sədərəkli Aşıq Əli Xanxanın oğlu, Aşıq Yusif, Aşıq Cəfər Çobankərəli, Aşıq Gülalı Məmməd, Aşıq Məmməd Cəfər, Şahbuzlu Aşıq İslam, Aşıq Hidayət və başqalarının adı bu mənada əlamətdardır (15, s. 234-243). XIX-XX əsrlərdə fəaliyyət göstərən Aşıq Abbas Dəhri, Gülalı Məmməd, Vayxırlı Məmmədcəfər, Aşıq Nabat, Aşıq Fətulla, Sərraf Qasım, Çobankərəli Məhəmməd, Sədərəkli Aşıq Yusif, Aşıq Cəlil kimi sənətkarlar Naxçıvanda aşıq sənətini, ifaçılıq ənənələrini yeni mərhələyə çatdırmışdır. XX əsrin əvvəllərində ifaçılıq aşıq sənətini davam etdirən sənətkarlar haqqında Nazim Quliyev yazır: "Aşıq Yusif Cəfərov(Sarı Aşıq), Şəhriyar kəndindən Aşıq Əli, Aralıq kəndindən Aşıq Hüseyn Arpaçaylı, Şahtaxtı kəndindən Aşıq Əbülfəz, Şahbuzun Kükü kəndindən aşıq Fərrux... və bir çox başqaları Naxçıvan aşıq yaradıcılığına öz töhfələrini vermiş, yüksək ifaçılıq sənəti nümayiş etdirmiş, sənət nümunələri yaratmışlar" (9, s. 20). Belə ki, XX əsrin əvvəllərindən etibarən ayrı-ayrı fəaliyyət göstərən ifaçı sənətkarların bir mərkəzdə cəmləşməsi, üçlüklərin genişlənməsi, xanəndələrin daha çox diqqət mərkəzinə

çəkilməsi bir tərəfdən ictimai həyatdakı sosial sifarişin ifadəsi idisə və bu maarifçilik hərəkatının genişlənməsi nəticəsində təhsilə, mədəniyyətə artan maraqla əlaqələndirlə bilərdisə, digər tərəfdən də görkəmli bəstəkar Üzeyir bəyin təbiri ilə desək qurup fəaliyyətinə keçən xanəndəlik sənəti aşıq sənətini ikinci plana keçirirdi. Bir məqam xüsusilə maraq doğurur ki, ötən əsrin ortalarından etibarən Naxçıvanda yaradılan xalq çalğı alətləri orkestrində saz da özünə yer tapır. Sazın milli musiqi aləti kimi xalq çalğı alətləri içərisində yer alması təbii idi, amma bu bir tərəfdən də aşıq sənətinə olan diqqətin azalmasına gətirib çıxara bilərdi.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan torpağında ifaçılıq sənətini inkişaf etdirən, orta əsrlərdə yaşamış sənətkarların yaradıcılıq yolu aşıq sənəti ilə yanaşı xanəndəlik sənətinin təşəkkülünə yön vermişdir. "Xanəndəlik əsasən Ordubad və Naxçıvanda yayılmışdı. Məşhur çalğıçı Murad ağa Naxçıvanlı Osmanlı sultanı IV Muradın saray musiqiçisi kimi fəaliyyət göstərmişdir" (7, s. 121-125). Bu deməyə əsas verir ki, Naxçıvanda xanəndəlik orta əsrlərdən bəri inkişaf etmiş, özünəməxsus ifaçı-sənətkarları ilə fərqlənmişdir. XVIII əsrdə özünəməxsus ifa tərzi ilə seçilən xanəndə Səttarın 1844-cü ildə Naxçıvana köçməsi və burada iki il yaşayaraq fəaliyyət göstərməsi, xanəndə Cəfərin uzun müddət Naxçıvanda xanəndəlik etməsi Naxçıvanda milli musiqi sənətinin inkişafına öz töhfəsini vermişdir. Səttarın sənətinin

məziyyətləri, onun sənətinin təsir dairəsi vö dövrü üçün bu sənətin mahiyyətinə varılan tədqiatda oxuyuruq: “On səkkizinci yüzillikdə musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan, dövrünün ən istedadlı müğənnilərdən sayılan Səttarın Naxçıvanda yaşayıb xanəndəlik etməsi bu bölgədə peşəkar musiqinin daha da inkişaf etməsinə təməl daşı olmaqla, o dövrdə buranın musiqi mərkəzlərindən biri olmasına təminat verir. Səttar İran Şahı Məmməd Mirzənin sarayında xanəndəlik etmiş, 1844-cü ildə Naxçıvana köçmüş və burada iki il yaşayaraq fəaliyyət göstərmişdir. Bu cür görkəmli müğənninin Naxçıvana gəlməsi hamını heyran qoyur. Az vaxtda onun gəlişinin xəbəri bölgəyə yayılır. Hər yerdə onun şərəfinə məclislər təşkil olunur. Səttarın incə, səlis, həzin və məlahətli səsi dinləyicilərini məftun edira”. Xanəndəlik sənətinə olan ehtiramın ifadəsi idi ki, XIX əsrin sonları-XX əsrin əvvəllərində Naxçıvanda yeni xanəndələr nəsli yetişib formalaşmışdır (13, s. 15). Bu məqamda Naxçıvanda məlum dövrlərdə təşkil olunan musiqi məclisləri, bu məclislərdə ifaçılıq sənətinin özünəməxsus dəyərlərinin formalaşması ilə yanaşı dövrün məşhur musiqiçisi Səttar və Cəfərin el arasında hörməti və onların sənətinə verilən qiymət haqqında danışmaq yerinə düşür. Belə ki, bu illərdə Naxçıvanda təşkil olunan musiqi məclisləri, şənliklər haqqında tədqiqatçı Nazim Quliyev yazır ki, bu məclislərdə 1845-ci ilin may ayına qədər Naxçıvanda Qəza Rəisinin köməkçisi işləyən gürcü şairi

Nikolaz Barataşvili də iştirak edərmiş, hətta Naxçıvan xanının qızı Qönçəbəyim də bu məclislərin daimi iştirakçısı olmuşdur. Maraqlıdır ki, dövrün elitar təbəqəsi olan simaların bu tipli musiqi məclislərində iştirakı, bu məclislərə dəyər verməsi bir tərəfdən də kütlələr arasında musiqi sənətinə, milli mədəniyyətimizə olan marağı artırmışdır. Tədqiqatçı yazır: " ...hamı çalışırdı ki, Səttar olan məclisdə iştirak edib, onun incə və həzin oxumağını eşitsin. O zaman Səttar Naxçıvan məclislərinin birində məşhur gürcü şairi Nikolaz Barataşvili ilə tanış olur. Barataşvili Azərbaycan musiqisini dərindən sevər və onu yüksək qiymətləndirərdi... O, Tiflisə rəfiqəsi Maiko Orbelianiyə yazdığı bir məktubunda Səttar və Cəfər adlı xanəndə ilə dost olduğunu qeyd etmişdir... Bu gecələrdə Səttar və Cəfərdən başqa Naxçıvan xanının qızı Qönçəbəyim də iştirak edərmiş. Səttar, Qönçəbəyimin şeirlərinə yazılmış mahnıları... oxuyardı" (9, s. 27).

XIX əsrin sonu- XX əsrin əvvəllərində Naxçıvanda fəaliyyət göstərən Məşədi Həsən, Məşədi Əsəd, Məşədi Əbil, Məşədi İsmayıl, Həsənqulu, İdris Nağıyev bu diyarda ifaçılıq-xanəndəlik sənətində yeni mərhələnin davamçıları olmuşdur. Adları çəkilən ifaçı xanəndələrin ifa tərzi, ifaçılıq mədəniyyəti haqqında araşdırmalarda olduğu kimi yaddaşlarda hələ də xoş izlər qalmaqdadır. Belə ki, bu istiqamətli bir tədqiqat əsərində qeyd olunur ki, "Xanəndələrdən Məşədi Həsən və Həsənqulunun "heyratı", Məşədi Əbilin "Çahargahı", Məşədi İsmayılın

“Şahnaz” və “Qatar”, İdris Nağıyevin “şur” muğamlarının sənət baxımından ifaçılığı haqqında bu gün də müxtəlif musiqi məclislərində şirin-şirin xatirələr söylənilir” (5, s .24). Qeyd etdik ki, əksər tədqiqatçıların ifaçı-xanəndə kimi təqdim etdiyi, “Şərq üçlükləri”ndən pərvazlanan xanəndələrin yaradıcılığı vokal ifaçılığın kökündə dayanan əsas sütunlardan idi. Eyni zamanda bir məqama da aydınlıq gətirmək gərəyi vardır ki, şərq üçlükləri kimi tanınan qruplarla fəaliyyət göstərərək öz ifaçılıq məharətini göstərən, vokal sənətin təşəkkülünə töhfələr verən sənət adamlarını da fərqləndirən status müəyyənləşdirilə bilər. Belə ki, “Naxçıvanlı xanəndələrlə yanaşı, Naxçıvanda muğam sənətini dərindən bilən bir sıra din xadimlərimizin də xanəndəlik və vokal ifaçılıq sənətinin inkişafındakı müsbət rolunu qeyd etmək lazımdır” (11, s. 24). Belə mərsiyəxan, xanəndələr sırasında mütəfəkkir dramaturq Hüseyn Cavidin atası Molla Abdulla, Azançı Baxşəli dini məraismlərdə ifaçılıqla məşğul olsalar da xanəndəliklə də məşğul olurdular. Bu dövrdən bəhs edən bir xatirədə qeyd olunur ki, “Yadımdadır: Bir Kərbalayı Baxşalı var idi... Kərbalayı Baxşəli vaxtilə toylarda, el şənliklərində oxuyardı.... Mən onun necə “Segah-zabul” oxuduğunun şahidi olmuşam...” (4, s. 127-128).

“Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da vokal məktəbinin yaradılmasında sadalanan məqamlarla yanaşı, yerli aşıq və xanəndə ustadlarının

böyük xidmətlərini qeyd etmək lazımdır. Onların ifa etdikləri aşıq havaları, muğamlar, təsniflər, xalq mahnıları vokal sənətinin burada yaranmasına əsaslı təsir göstərmişdir” (4, s. 23). Məsələyə bu prizmadan yanaşan tədqiqatçıların qənaəti vokal ifaçılıq sənətinin yaranması ilə bağlı bu cür mülahizəni təsdiqləyir ki, “Azərbaycan vokal ifaçılıq sənəti məhz aşıq və muğam sənətindən bəhrələnərək müstəqil ifaçılıq sənətinə çevrilmişdir” (5, s. 17). Bütün bu deyilənlərdən yola çıxaraq yekunlaşdıra bilərik ki, Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da vokal ifaçılıq sənəti aşıq musiqisi və kalssik Şərq musiqisinin ənənələri üzərində təşəkkül taparaq rişələnmiş, XX əsrdə özünün inkişafının yeni mərhələsinə çataraq musiqişünaslıqda ayrıca bir istiqamətə-vokal ifaçılıq sənətinə çevrilmiş, eyni zamanda XX əsr boyunca öz inkişaf dinamikası ilə digər sahələrdən daha da sürətli inkişafı ilə seçilmişdir.

Ötən əsrin 20-ci illərində sovet Azərbaycanında mədəniyyət mərkəzlərinə, təhsil müəssislərinə diqqət göstərilməsi, kütləvi savadsızlığın qarşısının alınması üçün tədbirlərin görülməsi nəticəsində Naxçıvanda bir tərəfdən mədəni səviyyənin yüksəlməsinə zəmin yaradırdısa digər tərəfdən də xanəndəlik, sazandəlik, ifaçılıq sənətinin inkişafına münbit şərait yaradırdı. Digər tərəfdən də bu illərdə həvəskar musiqiçilərlə musiqi həvəskarlarının təşəbbüsü nəticəsində musiqi məclisləri təşkil olunur, yeni simalar bu məclislərdə təqdim olunurdu. Belə

ki, bu gün də xatirələrdə yaşadılan Süleyman Süleymanovun musiqi cümələri bu cəhətdən əlamətdar olmuş, ifaçılıq, ümumilikdə musiqi mədəniyyətimizin inkişafına güclü təkan vermişdir. Şərq üçlükləri şəklində bu məclislərdə püxtələşən xanəndələr "el şənliklərindən konsert salonlarına" doğru yol almaqda idi. Şərq üçlükləri ilə ifaçılıq mədəniyyətimizi yeni mərhələyə daşıyan Məşədi Əsəd, Həsənqulu, İdris Nağıyevin məlahətli səsi, ifaçılıq mədəniyyəti, davranış etikası bu dövrün xatirələrinə baxanda aydın olur ki, "Yazılmamış kitab" olmuşdur. Belə ki, bu kimi sənətkarlardan ifaçılıq sənətinin sirlərini öyrənən istedadlar həm musiqi haqqında, həm də mental dəyərlərimiz haqqında çox dərslər almışdır. Nazim Quliyev ötən əsrin 30-cu illərində üçlükləri ilə könülləri fəth edən komandalardan biri- İdris Nağıyev haqqında yazır: "Məlahətli səsi olan xanəndə İdris Nağıyev, məşədi Əsəd və Həsənqulu kimi muğamlarımızın bilicisi idi... İdrisin şərq üçlüyü 1936-cı ildən etibarən toy məclislərində, eyni zamanda konsertlərdə çıxış edərdi. ...Onun ifa etdiyi "Rast", "Şur", "Segah" muğam-dəsgahları uzunsürən alqışlarla qarşılanardı..." (9, s. 29). Bəli belə bir mühitdə formalaşan, yeniləşən ifaçılıq mədəniyyəti zamanla rəsmi şəkildə himayə olunmağa başladı. 1943-1948-ci illərdə Naxçıvan Dövlət Radio Komitəsinin nəzdində şərq üçlüyü fəaliyyət göstərməyə başlayır, mütəmadi olaraq xanəndə Abbas Axundovun ifasında musiqi nömrələri, muğamlar səsləndirilirdi. Qısa

zaman sonra artıq Naxçıvanda bu üçlüklərin sayı onlarla oldu. Əlamətdar olan odur ki, məhz bu illərdə üçlüklərə qadınlar da cəlb olunmağa başladı. Qeyd edək ki, bu günün uzaqlığında Kamil Abdullayevin yaratdığı sənət möcüzələri haqqında hələ də xalq arasında rəvayətlər dolanmaqdadır. Radio Komitəsində üçlüklərin ifasından bəhs edən sənətşünas Əli Qəhrəmanov yazır "Ötən əsrin qırxıncı illərindən başlayaraq Şərq üçlük-lərinin səsi Naxçıvan radiosundan eşidilir. Tarzən Kamil Abdullayevin, kamançaçı Ələsgər İsfəndiyarlının və dəf çalan Səfər Rəcəbovun müşaiyyəti ilə Abbas Axundovun ifasında " Rast ", " Bayatı-şiraz " muğamları, xalq mahnı və təsnifləri dinləyiciləri məftun edir. Öz ifaçılıq məharəti ilə fərqlənən, məlahətli səsi olan xanəndə Səttarın üçlüyündə 1945-ci ildən tarda Kamil Abdulliyev, kamançada Ələsgər İsfəndiyarlı çıxış edirlər. Daha sonralar Mənsurə Ələkbərovanın üçlüyü fəaliyyətə başlayır. Onu tarda Nəriman Məmmədov, kamançada Ələsgər İsfəndiyarlı, dəfdə Məzahir Bayramov müşaiyyət edirlər. Onların repertuarını əsasən zərb muğamları, qədim xalq mahnı və təsnifləri bəzəyirdi. Həmin illərdə Naxçıvan Radio Komitəsində daha bir üçlük fəaliyyət göstərir. Bu üçlüyün özəlliyi onda idi ki, tarda Əsgər Əsgərov, kamançada Şulan Ələkbərov, dəfdə Səfər Rəcəbov xalq rəqslərinin təbliğatçısı kimi çıxış edir, müəyyən bir muğam üzərində bəstələnmiş rəqslərə üstünlük verirdilər. Onların ifasında hər hansı bir muğamda ifa olunan rəqslər

bir konsertə həsr olunardı" (7, s. 162). Muğam üçlüklərinin Naxçıvanda ifaçılıq sənətində tutduğu yerdən bəhs edən tədqiqatçı bu dövrdə fəaliyyət göstərən üçlüklərdə qadınların da təmsil olunması faktına diqqəti cəlb edir: "1949-cu ildə başlayaraq xanəndə Zərqələm və Cəvahir Şuşinskaya, tarzən Kamil Abdullayevin üçlüyündə çıxış edirlər. Həmin illərdə Vahid Axundovun üçlüyü nəzər-diqqəti cəlb etməklə dinləyiciləri heyran edir. Oun özü gözəl tar çalmaqla yanaşı, həm də məlahətli səsi vardı. O, xalq mahnılarını, təsnifləri özünəməxsus ifa tərzi ilə oxuyurdu. Bunlarla yanaşı o həm də mahnılar bəstələyirdi. Bəstələdiyi "O Naxçıvandır" (sözləri Əliheydər Qənbərovun) mahnısını xüsusi təravətlə oxuyurdu. Bu üçlükdə kamançada Ələsgər İsfəndiyarlı, qavalda Ələkbər Rəhimovun ifaları güclü təsir bağışlayırdı" (7, s.162). Bu fakt özlüyündə şərq sxolastik cəmiyyətində musiqinin haram olması, musiqi alətlərinə və musiqi ifaçılığına, eləcə də ifaçılarına barmaqarası baxılması gerçəyinə qarşı qoyulur. XX əsr ərzində Naxçıvanda mədəni tərəqqinin, maarifçilik hərəkatının birbaşa bəhrəsi idi ki, ötən əsrin əvvəllərində musiqi təhsili və ifaçılığına insanlar arasında meyl olmadığı halda əsrin ortalarında artıq bu sahədə inkişafın göstəricisi olan qadınlarımızın da sənət yolunu tutması gerçəyi bu günkü güclü inkişafın kökündə dayanmaqdadır.

1949-cu ildə başlayaraq xanəndə Zərqələm və Cəvahir Şuşinskaya, tarzən Kamil Abdullayevin üçlüyün-

də çıxış edirlər. Həmin illərdə Vahid Axundovun üçlüyü nəzər-diqqəti cəlb etməklə dinləyiciləri heyran edir. Oun özü gözəl tar çalmaqla yanaşı, həm də məlahətli səsi vardı. O, xalq mahnılarını, təsnifləri özünəməxsus ifa tərzi ilə oxuyurdu. Bunlarla yanaşı o həm də mahnılar bəstələyirdi. Bəstələdiyi “O Naxçıvandır” (sözləri Əliheydər Qənbər-ovun) mahnısını xüsusi təravətlə oxuyurdu. Bu üçlükdə kamançada Ələsgər İsfəndiyarlı, qavalda Ələkbər Rəhim-ovun ifaları güclü təsir bağışlayırdı.

Ümumilikdə ötən əsrin ortalarında Naxçıvanda musiqi mədəniyyətinin inkişafında əsas mərkəzlərdən biri musiqi məktəbi idisə digərləri musiqi kollektivləri və aşıq məclisləri idi. İstər aşıq məclislərində yaradıcı və yaşadıcı aşıqların timsalında ifaçılıq sənətinin inkişafı, istərsə də şərq üçlüklərində və bu dövrdə yeni yaranan musiqi kollektivlərinin simasında ifaçılıq sənəti yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Vurğulamaq yerinə düşər ki, bu dəvrdə artıq şərq üçlüklərinin sayı artmış, bu üçlüklər müxtəlif musiqi kollektivlərinin tərkibində, musiqi məktəbində yaradılan kollektivlərdə, eləcə də Dövlət Radio Komitəsində, Dram Teatrının tərkibində uğurla təmsil olunur, müxtəlif konsertlərdə milli musiqi sənətimizi yaşadır, təbliğ edirdi. Eyni zamanda məlum dövrdə bu tipli birliklər, şərq üçlükləri və digər musiqi kollektivlərinintimsalında ifaçılıq sənəti də güclü inkişaf, təşəkkül dövrü keçirirdi. Bu dövrün ifaçıları, eləcə də musiqiçiləri arasında varislik ənənələri yaxşı bir şəkildə

davam etdirilir, ustad-şəyird münasibətləri gözlənilir, bu da öz növbəsində sənətdə ardıcıllığı təmin edirdi. Sənətşünas Əli Qəhrəmanov XX əsrdə Naxçıvanda ifaçılıq sənətinin keçdiyi inkişaf yoluna müxtəsər nəzər salaraq yazır: "İfaçılıq sənəti Naxçıvanda özünəməxsus dərəcədə inkişaf etdiyindən iyirminci yüzilliyin iyirminci illərindən bacarıqlı tarzən Kamil Abdullayevin tərəfindən təbliğ olunan ifaçılıq sənəti istedadlı tarzən Əkrəm Məmmədovun, kamança çalan Adıgözəl Adıgözəlovun, Kamal Əliyevin, tarzənlər Ələkbər Ələkbərovun, Abdulla Abdullayevin, Nazim Kazımovun, Rza Abbasovun, Aydın Məmmədovun, Namiq Teymurovun, Tağı Tağıyevin, Taryel Abbasovun, kamança çalan Ənvər Hüseynovun, klarnetçalan Kamil Hüseynovun, klarnet və balaban çalan Əkrəm Əliyevin, Salman Əliyevin, Məmməd Məmmədovun, dəf çalanlar Səfər Rəcəbovun, Bala Yusifin, Məzahir Bayramovun, pianino çalanlar Müzəffər Əsgərovun, Vidadi Heydərovun, Həsənağa Qurbanovun ifalarında daha da inkişaf edir" (7, s. 163). Göründüyü kimi XX əsr boyu Naxçıvanda ifaçılıq sənəti sürətli inkişaf dinamikası ilə xarakterizə olunurdu. Ötən əsrin 80-90-cı illərinə qədər üçlüklərin timsalında ifaçılıq sənəti inkişaf edərək milli musiqi sənətini yaşadırdısa burada diqqət çəkiləsi bir məqam da uzun bir dövr ərzində bu sənət aşiqləri özlərinin davamçılarını yetişdirirdilər. Bu gün musiqi dünyasında hər kəs Kamil Abullayev ənənələrinin Vahid Axundov yaradıcılığında yaşadıldığını

etiraf edirsə deməli sənətdə varislik prinsipi XX əsr boyu davam etdirilmişdir. Qeyd edək ki, ötən əsrin 80 -90-cı illərində xanəndə Qurban Qasımovun üçlüyü daha çox diqqəti cəlb etmişdir. Məlahətli səsi olan Qurbanın, tarzən Elman Əliyevin, kamança çalan Nizami Hüseynovun üçlüyünün repertuarını əsasən muğam dəsgahları təşkil edirdi.

Diqqət yetirəcəyimiz bir digər məqam da ötən əsrin ortalarında Naxçıvanda ifaçılıq sənətinin yaşadıldığı inkişaf etdirildiyi mərkəzlər və onların fəaliyyətində klassik ifaçılıq sənətində vokal ifaçılığa, profesional sənətə doğru keçən yolu izləməkdir. Bu mənada nəzərə alaq ki, köklü ənənələri özündə yaşadan aşıq sənəti hələ də mövcudiyyətini davam etdirirdi, eyni qəbildən tarixi kökləri ilə yaşadılan şərq üçlüklərində ifaçılıq sənəti yeniləşməkdə və davam etməkdə idi. Məsələ burasındadır ki, ifaçılıq sənətinin inkişafı üçün münbit şərait var idi. Bu şərait dahi Üzeyir bəyin təşəbbüsü və dəstəyi ilə yaradılan Naxçıvan uşaq musiqi məktəbində, daha sonra Muxtar Respublikanın kəndlərində belə fəaliyyətə başlayan musiqi məktəblərində yaradılır, bir tərəfdən musiqiçi kadrların hazırlanması işi aparılırdısa digər tərəfdən də bu məktəblərdə musiqi kollektivləri yaradılır, onların köməyi ilə konsert proqramları hazırlanır, dolayısıyla ifaçılıq sənəti yaradılırdı. Bir başqa mərkəz rolunu Naxçıvan şəhər Pionerlər Evində yaradılan musiqi kollektivlərinin, onların yaratdığı “Əlvan çiçəklər” Mahnı və Rəqs ansamblının

fəaliyyəti təşkil edirdi. 1963-cü ildə möhkəm baza üzərində "Araz" Mahnı və rəqs ansamblının yaradılması və fəaliyyət yolu, 1984-cü ildə Naxçıvan Dövlət Filarmoniyasının yaradılması muxtar respublikanın musiqi həyatını dah da canlandırır. "Araz" Mahnı və Rəqs ansamblının fəaliyyət yolundan, uğurlarından bəhs edən tədqiqatçı Nazim Quliyev yazır: "Filarmoniyanın fəaliyyətində uzun müddət onun direktoru işləmiş Məmməd Hümbətovun xidməti xüsusilə qeyd edilməlidir. 1979-cu ildən "Araz" Mahnı və Rəqs ansamblının direktoru işləyən Məmməd Hümbətov, 1997-ciilədək Naxçıvan Dövlət Filarmoniyasının direktoru vəzifəsində çalışmışdır. Onun rəhbərliyi ilə "Araz" Mahnı və rəqs ansamblı 1991-ci ildə Türkiyənin İstanbul şəhərində keçirilənI Ümumdünya Folklor festivalında, 1994-cü ildə Avstriyanın Vyana şəhərində, 1995-ci ildə İsveçrədə, 1996-cı ildə Almaniyanın Köln şəhərində, Orta Asiyada və bir çox geniş konsert salonlarında çıxış edərək sənət uğurları qazanmışdır" (9, s. 43). Artıq muxtar respublika hüdudlarından kənarda da fəaliyyəti ilə diqqəti cəlb edən, milli musiqimizi, ifaçılıq sənətini uğurla təmsil edən bu tipli kollektivlərin musiqiçi kadrların yetişib formalaşmasında da müstəsna xidməti olmuşdur. Belə ki, görkəmli müğənni, vokalist Yaşar Səfərov, Elburus Mehdiyev, Müsəvvər Əsgərov, Afət Novruzov, Nazim Quliyev kimi dəyərli sənət adamları "Əlvan çiçəklər" ansamblının fəal üzvü, ansamblda şöhrət qazanmış sənətkarlar olmuşdur.

Eyni zamanda Radio Komitəsində, Naxçıvan şəhər Orta İxtisas Musiqi Məktəbində, teatrda daha sonra Mədəniyyət nazirliyi və müəssisələrində bu işlər uğurla davam etdirilirdi. 1959-cu ildə yaradılan, uğurlu fəaliyyət yolu olan Dövlət Konsert briqadasının da Naxçıvanda ifaçılıq sənətinin inkişafında müstəsna xidmətləri olmuşdur. Bu isə öz növbəsində ifaçılıq sənətinin daha da inkişaf etməsinə zəmin yaratmışdır. Bu gün Naxçıvan Muxtar Respublikasında ifaçılıq, vokal ifaçılıq sənətinin dəyərli nümayəndələri muxtar respublikanın mədəni həyatında fəal şəkildə iştirak edirlərsə, milli musiqi mədəniyyətimizi ölkə və xaricdə layiqli şəkildə təmsil edirlərsə sözsüz ki, bu ötən əsrdən bəri formalaşmış, zəngin bazanın hesabınadır. Bir məqama da aydınlıq gətirək ki, Naxçıvan Muxtar Respublikasında vokal sənətin inkişafında əhəmiyyətli mərhələlərdən biri də Naxçıvan şəhər Orta İxtisas Musiqi Məktəbinin tərkibində Xalq Çalğı alətləri orkestri, Xor kollektivi ilə birlikdə "Nəqşi-cahan"vokal instrumental ansamblının yaradılması və fəaliyyəti təşkil edir. "Nəqşi-cahan" vokal instrumental ansamblının fəaliyyəti, eləcə də Naxçıvanda vokal sənətin geniş dairədə inkişafı haqqında söz açan Nazim Quliyev yazır ki, "”Nəqşi-cahan" vokal instrumental ansamblı (Vaqif Məmmədov, sonralar Nazim Quliyev, Arif Quliyev ansamblın bədii rəhbəri olmuşlar), xalq melodiyaları və Azərbaycan bəstəkarlarının mahnıları ilə yanaşı, əsasən Naxçıvan bəstəkarlarının yaradıcılıqlarının əsl təbliğatçısı

idi. Bir çox mahnıların həyatı bu ansamblda başlayırdı. Məmməd Məmmədovun "Azərbaycanım" (sözləri Hüseyn Razinindir), Məmməd Ələkbərovun "Batabat" (Sözləri İslam Səfərlinindir), S.Məmmədovanın "Ağırdır" (sözləri Elmira Qasımova), Nazim Quliyevin "Heyf" (Sözləri Bəxtiyar Vahabzadənindir), və s. mahnılar ansamblın repertuarında xüsusi yer tuturdu. Ansamblın solistləri olan Dilqəm Məhərrəmovun, Qurban Qasımovun, Hünər Əliyevin, Həqiqət Ələkbərovanın, Vilayət İsmayılovun və bir çox başqalarının çıxışları bu gün də musiqisevərlərimizin xatirindən silinməyibdir" (9, s. 59). Qeyd edək ki, "Nəqşi-cahan" vokal instrumental ansamblı professional şəkildə vokal ifaçılığın formalaşdığı əsas mərkəzlərdən biri olmuş, burada yetişib formalaşan vokalistlər bu gün də Muxtar Respublikanın mədəni həyatında fəal şəkildə iştirak edir və milli musiqi sənətini təmsil edirlər.

Naxçıvan musiqi mədəniyyətinin, həmçinin ifaçılıq sənətinin inkişafında xüsusilə əhəmiyyət daşıyan məqamlardan biri də indiki Naxçıvan Dövlət Universitetinin nəzdində 1988-ci ildə "Musiqi təsviri incəsənət" kafedrasının yaradılması olmuşdur. Hələ bu illərdən Naxçıvanda konservatoriyanın yaradılmasına təşəbbüslər göstərilsə də bu iş gecikmiş, nəhayət 1996-cı ildə Naxçıvan dövlət Universitetində konservatoriya yaradılmış, digər ixtisaslarla yanaşı vokalist mütəxəssislər yetişdirilməyə başlanmışdır. Nəzərə alaq ki, buna qədər istedadlı gənclər təhsillərini davam etdirmək, ali təhsil

almaq üçün başqa şəhərlərə- ali məktəblərə üz tuturdusa artıq muxtar respublikada ali təhsilli vokalistlərin təhsil almasına şərait yaradılmış, bu da öz növbəsində incəsənətin digər sahələri ilə yanaşı vokal instrumental ixtisaslara yiyələnən musiqiçilərin formalaşmasına öz müsbət təsirini göstərmişdir. Artıq professional şəkildə kadr hazırlığı işinin həyata keçirildiyi Naxçıvan Muxtar Respublikasında incəsənətin, mədəniyyətin bütün sahələrində olduğu kimi ifaçılıq sənəti sahəsində də çoxsaylı uğurlara imza atılmış, gənc istedadların düzgün şəkildə tərbiyəsi, musiqi elminin dərinliklərinə bələd olması sahəsində görülən ardıcıl tədbirlərin nəticəsində muxtar respublikada ifaçılıq-vokal ifaçılıq sənəti sürətli inkişaf edərək öz tarixi, köklü ənənələri üzərində tərəqqi tapır.

Naxçıvan Muxtar Respublikasında ifaçılıq sənətinin keçdiyi tarixi inkişaf yolunun öyrənilməsi məqsəd olaraq qarşıya qoyulan metodik vəsaitdə keçilən yolun xülasəsini tədqiqatçı Nazim Quliyevin fikirləri ilə tamamlayırıq: "Göründüyü kimi Naxçıvan musiqi mədəniyyəti bir çox görkəmli ifaçılar yetirmişdir. Naxçıvan, Azərbaycanın qədim, təkraredilməz təbii gözəlliyinə malik olan bir guşəsi olduğu kimi, Naxçıvan musiqi mədəniyyəti, eləcə də ifaçılıq sənəti Azərbaycan musiqi kitabəsinin ayrılmaz, maraqla oxunan tərkib hissəsidir.

Şübhəsiz ki, Naxçıvan musiqi mədəniyyətinin ifaçılıq sənətinə təkrarolunmaz yaradıcılıqları ilə naxışlar vurmuş görkəmli façılar, istedadlı, gənc musiqisevərlərin

sənət yollarına nur saçacaqlar. Yaradıcılıqla, sənət gözəlliyi ilə dolu bu nur işığı musiqi mədəniyyətimizin gələcək yollarını müəyyənləşdirəcək, onun gənc nümayəndələrinə uğurlar bəxş edəcəkdir” (9, s. 65).

# ELBURUS MEHDİYEV

Azərbaycan mədəniyyəti, ədəbiyyatı, ictimai fikir tarixinə görkəmli sənətkarlar, incəsənət ustaları bəxş etmiş Naxçıvan torpağının istedadlı, dəyərli yetirmələrindən biri də incəsənət tariximizdə çoxtərəfli yaradıcılıq yolu, fərdi yaradıcılıq manerası ilə diqqəti cəlb edən istedadlı sənətkar Elburus Mehdiyevdir. Elburus Mehdiyev sənətinin ecazkarlığı, ürəklərə asanlıqla yol tapmasının başlıca səbəblərindən biri də sənətkarın doğma torpağa bağlılığı, öz sənət dünyasının üfüqlərini daim inkişaf etdirməsi, sənətinə olan aşiqliyidir desək, yanılmarıq. Elburus Mehdiyev Naxçıvan torpağının yetirməsi kimi, Azərbaycan incəsənətini, ifaçılıq sənətini layiqli şəkildə təmsil etməklə, çoxsaylı fərdi yaradıcılıq nümunələri ilə musiqi dünyamızı zənginləşdirməklə yanaşı çoxtərəfli yaradıcılıq yolu, zəhmətkeşlikdən güc alan ömür yolunda ictimai-mədəni, pedaqoji irs tariximizi də zənginləşdirmişdir. Sənətkarın ömür və sənət yolu heç də hamar olmamış, yaş üstünə yaş gəldikcə qazanılanın xalqa sədaqətlə xidmət, dəyərli sənət əsərlərinin irs qoyulması təsəllisi olmuşdur.

Elbrus Mehdiyev 1940-cı ildə 31 yanvar tarixində Naxçıvan şəhərində anadan olmuş, ilk təhsilini Naxçıvan şəhər 3 saylı məktəbdə almaqla yanaşı Naxçıvan şəhər uşaq musiqi məktəbində təhsilini davam etdirmişdir. Hələ uşaq yaşlarından musiqiyə, ifaçılıq sənətinə dərin marağı

olan sənətkar ilk addımlarını 3 saylı məktəbin bədii özfəaliyyət dərnəyində atmışdır. Burada müxtəlif tədbirlər, el şənliklərində, müsabiqələrdə fəal iştirak etmiş, təltif olunmuşdur. Elburus Mehdiyevin istedadı qısa zamanda sənət dünyasında rəğbətlə qarşılanır. Ənvər Məmmədovun təşəbbüsü ilə Elburus Pioner və məktəblilər evinin "Əlvan çiçəklər" mahnı və rəqs ansamblında fəaliyyətə başlayır və qısa zamanda aparıcı solistlərdən biri kimi Muxtar Respublikanın incəsənət aləmində özünəməxsus dəsti-xətt yaradır. Nəzərə alsaq ki, bu dövrdə sadalanan bu kimi fəaliyyətləri gerçəkləşdirmək heç də asan deyildi, o zaman Elburus müəllimin və onun da daxil olduğu ansamblın qazandığı nailiyyətlər daha əlamətdar olur. Belə ki, "Əlvan çiçəklər" Mahnı və Rəqs ansamblının fəaliyyət yolundan, Elburus müəllimin də daxil olduğu kollektivin fəaliyyətindən bəhs edən tədqiqatçı vurğulayır: "45-50 il bundan əvvəl keçirilən tədbirlərin ağırlığını və mahiyyətini qiymətləndirmək üçün təkcə belə bir faktı göstərmək kifayətdir ki, ansamblın üzvləri yük avtomobillərində, arabalarda, bə`zi hallarda isə (yaxın kəndlərə) yolu piyada qət edərək Muxtar Respublikanın rayon mərkəzlərində və əksər kəndlərində olmuş, çox çətin şəraitdə konsertlər verərək musiqi mədəniyyətimizi layiqincə təbliğ etmişlər. Burada mahnı və rəqs ansamblının yaradılmasında böyük xidmətlər göstərmiş, sonralar isə kollektivin direktoru olmuş Məmməd Ələkbərovun ansamblın uğurlu fəaliyyəti sahəsində apardığı yaradıcılıq

və təşkilatçılıq işini xüsusi qeyd etmək lazımdır" (18). Bir məqamı da qeyd etmək ehtiyacı vardır ki, "Əlvan çiçəklər" manhın və rəqs ansamblının rəhbəri Məmməd Məmmədovun da Elburus müəllimə xeyirxahlıqla yanaşması, ona dəstək olması gənc ifaçının gələcək sənət yolunun müəyyənləşməsində müstəsna rol oynamışdır. O illəri xatırlayan sənət adamları vurğulayır ki, Elburus Mehdiyevin ifasında xalq mahnıları, M.Məmmədovun, M.Ələkbərovun mahnıları xüsusilə fərqlənmişdir. 1961-ci ilə qədər çalışdığı "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı onun sənət dünyasında yeni üfüqlər açmışdır. İstedadlı vokalistin Naxçıvan dövrü fəaliyyətindən bəhs edən Rəfail Kərimov qeyd edir ki, "Xalq mahnılarından "Almanı atdım xarala", "Bu gün ayın üçüdür", "Ay Güləbətin", bəstəkar Məmməd Ələkbərovun "Doğma Naxçıvan", "Araz" və digər mahnıların Elbrus tərəflndən məharətlə ifa edilməsi keçirilən konsertlərin uğur qazanmasına böyük təsir göstərirdi" (18). Belə ki, Elburus müəllim paralel olaraq teatr sahəsində də fəaliyyət göstərmişdir. Bununla bağlı maraqlı bir fakta diqqət çəkək. Hüseyn Razinin 1959-cu ildə "Şərq qapısı" qəzetində nəşr olunan məqaləsində Bəxtiyar Vahabzadənin "Ədalət" tamaşasında xanəndə rolunu ifa edən Elburus Mehdiyevin səhnə fəaliyyəti haqqında qeyd olunur ki, Elburus "...ifa etdiyi mahnının bütün incəliklərini tamaşaçıya çatdıra bilir" (14). Sözsüz ki, tanrının verdiyi bu istedadı cilalamaq, inkişaf etdirmək üçün təhsil başlıca

şərt idi. Elburus Mehdiyev 1961-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə vokal şöbəsinə qəbul olunur və onun sənət dünyasında yeni üfüqlər açan paytaxt mühiti bir tərəfdən onun yetkinləşməsinə səbəb olurdusa, bir tərəfdən də fəaliyyət dairəsini genişləndirməyə imkanlar açırdı. Burada o Firudin Mehdiyevin sinifində təhsilini davam etdirir. Sənətə olan sonsuz həvəsi ilə 1965-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirən Elburus Mehdiyev Sumqayıtda Orta İxtisas Musiqi Məktəbinin vokal şöbəsində müəllim kimi pedaqoji fəaliyyətə başlayan sənətkar eyni zamanda həmin il Azərbaycan Dövlət Kanservatoriyasında qiyabi olaraq təhsilini davam etdirir. Elburus müəllimin Sumqayıtda vokal ifaçılıq sahəsində formalaşdırdığı yol bu gün də davam etdirilir, onun pedaqoji ustalığı, ifaçılıq məharəti sayğıyla xatırlanır. Elburus müəllim 1965-81-ci illərdə Sumqayıtda pedaqoji fəaliyyətlə məşğul olmaqla yanaşı ölkə səviyyəli çoxsaylı ədəbi-mədəni, musiqili tədbirlərdə fəal şəkildə iştirak etmiş, öz ifaçılıq məharəti ilə sənətsevərlərin zövqünü oxşamışdır. Vicdan, səmimiyyət, istedaddan yoğrulan Elburus Mehdiyevin qısa, amma məhsuldar həyat və sənət yolu onu sənətsevərlərin yaddaşında əbədiləşdirməklə yanaşı onun yetişdirdiyi məlahətli ifaçılar nəsli bu gün də Elburus Mehdiyevin sənət amalını varislik prinsipi ilə davam etdirirlər. Bütün varlığı ilə sənətə, pedaqoji prosesə bağlı olan, incəsənətimizin, mədəniyyətimizin inkişafı naminə bütün varlığı

ilə çalışan Elburus Mehdiyev ömrü qısa olsa da qoyduğu irs, yol yaşamaqda, sənətkarı yaşatmaqdadır. 1981-ci il 19 oktyabrda Elburus Mehdiyev haqq dünyasına qovuşmuşdur. Görkəmli vokalist Elburus Mehdiyevin ömür və sənət yolundan bəhs edən tədqiqatçı Nazim Quliyev dəyərli sənətkarın sənət uğurlarını sıralamaqla yanaşı onun vaxtsız vəfatından təəssüfünü belə ifadə edir: "Naxçıvan vokal musiqisinin layiqli ifaçılarından biri də məlahətli səsə malik olan, çıxışları hərarətlə qarşılanan mərhum Elburus Mehdiyev idi. 1960-cı illərdə Naxçıvanda keçirilən konsertlərin ulduzu idi Elburus. Onun vurğunluqla ifa etdiyi "İnlə yarım inlə" xalq mahnısı, "Şur", "Segah", "Bayatı-şiraz" təsnifləri, hələ də Naxçıvan dinləyicilərinin musiqili yaddaşlarından silinməyib... Belə bir sənət ulduzunun vaxtsız sönməsindən heyfslənməyə dəyər. Heyf Elburusdan-gələcəyi parlaq olan bir sənətkardan" (9, s. 50).

## MƏMMƏD NƏSİRBƏYOV

Naxçıvan torpağının XX əsrdə yetirdiyi ictimai xadim, bəstəkar, pedaqoq, vokal ifaçılıq sahəsində özünəməxsus dəsti-xətti olan dəyərli sənətkarlardan biri də Məmməd Nəsirbəyovdur. Məmməd Nəsirbəyova xalqa xidmət amalı atası Mirzə Həsən Nəsirbəyovdan qalmışdır, desək yanılmarıq. Qeyd etmək gərəyi vardır ki, Məmməd Nəsirbəyovun atası Mirzə Həsən Nəsirbəyov dövrünün açıq fikirli, qabaqcıl ideyaların daşıyıcısı, carçısı olan dəyərli maarif xadimi olmuşdur. Mirzə Həsən nəsirbəyov görkəmli istimai-siyasi xadim, maarifçi-yazıçı dramaturq Nəriman Nərimanovun yaxın ətrafında olmuş, İrəvan gimnaziyasında  təhsil almış, ömrünü ölkəmizin ayrı-ayrı bölgələrində pedaqoji fəaliyyətə, maarifçilik ideyalarının təbliğinə həsr etmişdir. Bir məqama da ayfınlıq gətirmək gərəyi vardır ki, Məmməd Nəsirbəyovun atası Mirzə Həsən Nəsirbəyov görkəmli demoktar ədib Cəlil Məmmədquluzadə ilə bir sinifdə təhsil almış, onlar arasında daim səmimi münasibətlər, əməkdaşlıqlar olmuş, əqidə və fikir birliyindən doğan bu münasibətlər maariçimizin inkişafına da öz töhfəsini vermişdir. Belə ki, bu məqam tədqiqatlarda bu şəkildə əksini tapır: “Atası tanınmış müəllim Mirzə Həsən Nəsirbəyov sevimli məktəb yoldaşı Cəlil Məmmədquluzadə ilə eyni parta arxasında oturmuş, onunla həmfikir, eyni əqidəli silahdaş olmuş, əvvəl Naxçıvanda, sonra isə İrəvan seminariysında

təhsil almışdır...” (10, s. 12). Belə bir ziyalı ailədə 1897-ci ildə Naxçıvanda dünyaya gələn Məmməd Nəsirbəyov kiçik yaşlarında ikən Mirzə Həsən Nəsirbəyov Bakıya köçmüşdür. Amma gələcək sənətkarın yaddaş dəftərində Naxçıvan təəssüratları əbədiyyən həkk olunmuşdur. İstedadlı vokalist haqqında aparılan tədqiqatlardan öyrənirik ki, məmməd hələ Naxçıvanda olarkən, uşaqlıq illərindən Şərq üçlüklərinin, xalq mahnılarının vurğunu olmuş, el şənlik və mərasimlərində musiqiyə vurğunluğunu ifadə etmişdir. Onun musiqiyə olan hədsiz marağının kökündə dayanan əsas faktorlardan biri ailədə musiqiyə olan maraq və həvəs idisə, digər faktorlardan biri də Naxçıvanda yaşadığı illərdə burada musiqyə, söz sənətinə verilən dəyər, ifaçılıq sənəti və teatra olan maraq idi və dövrə də nəzər saldıqda aydın olurdu ki, bu illərdə Naxçıvanda teatr, incəsənətə böyük önəm verilmiş, ardıcıl olaraq tamaşalar, mərasimlər təşkilolunmuşdur. Məmməd Nəsirbəyovun, eləcə də onun həmyaşıdlarının bəxtinə düşən işıq, onların musiqi sənətinə həvəsini birə beş artıran faktorlardan biri də bu illərdə dahi bəstəkar Zülfüqar Hacıbəyovun Naxçıvanda qısa müddətə də olsa yaşayıb fəaliyyət göstərməsi olmuşdur. Bu səpkili araşdırmada oxuyuruq: “Məmməd təhsil aldığı məktəbin xor kollektivində iştirak edir, gözəl səsi ilə hər kəsin diqqətini cəlb edirdi. Tədricən məktəb konsertlərində solo ifaçı kimi çıxış edərək xalq və bəstəkar mahnılarını özünəməxsus yaradıcılıqla ifa edirdi.

1911-1912-ci illərdə bəstəkar Zülfüqar Hacıbəyovun Naxçıvana ikinci gəlişi və biri ilədək bu şəhərdə yaşayıb yaratması Naxçıvan musiqi mədəniyyətinin, teatr sənətinin inkişafına, musiqiçilərin, aktyorların, eləcə də gənc Məmmədin yaradıcılıq həyatına mühüm təsir göstərmişdir” (10, s. 14). Məmməd Nəsirbəyov kiçik yaşlarından belə bir tərəqqipərvər ailə böyüyüb təhsil almış, kiçik yaşlarından musiqiyə, incəsənətə böyük həvəs göstərmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, Məmmədin atası Mirzə Həsən də musiqyə dərin rəğbət bəsləmiş, hətta özünün də gözəl səsi olduğundan teatrda və eləcə də ayrı-ayrı mərasimlərdə Azərbaycan xalq mahnılarını məlahətli səslə ifa edə bilirmiş. Dövrünə görə yaxşı təhsil alan, bir sıra biliklərə dərindən yiyələnən Məmməd Nəsirbəyovun kiçik yaşlarından musiqiyə olan həvəsi nəticəsində ifaçılıq sənətinə- vokal ifaçılığa meyl etmiş, ilk təcrübəsini vokal ifaçılıqda qazanmışdır. 1919-cu ildən Məmməd Nəsirbəyov Bakı Opera Teatrında çalışmış, 1923-cü ildə vokal ifaçılıq üzrə musiqi məktəbində təhsil almışdır. Qeyd edək ki, Məmməd Nəsirbəyovun təhsilini görkəmli bəstəkar Üzeyir Hacıbəyov bir qrup gənclə birlikdə öz üzərinə götürür. Artıq sənətdə, ifllaçılıqda müəyyən məsafə qət edən Məmməd Nəsirbəyov təhslini davam etdirmək üçün 1927 ci ildə Bakı Musiqi Texnikumuna daxil olur. Dahi bəstəkar Üzeyir Hacıbəyovun gənc istedad Məmməd Nəsirbəyova olan inam və etimadından bəhs edən

tədqiqatçı yazır: "Təhsillə yanaşı, Məmməd Nəsirbəyovun əmək fəaliyyəti Azərbaycan musiqi həyatının quruculuq illərinə təsadüf edir.Üzeyir bəyin sevimli tələbəsi kimi gənc Məmməd bu quruculuq işlərində yaxından iştirak etmişdir. 1920-1922-ci illərdə Üzeyir bəyin təşəbbüsü ilə siyasi İdarənin nəzdində Azərbaycan xalq çalğı alətləri orkestri yaradılır. Orkestrin tərkibi 70 nəfər musiqiçidən və 10 nəfər tanınmış xanəndə, müğənnilərdən ibarət idi. Məmməd bu orkestrdə tarzən vəzifəsində çalışırdı. Orkestr, əsasən, hərbi və dəniz donanması hissələri üçün konsertlər verirdi..." (10, s. 24). Bu kimi faktların özü də bir fikri əminliklə deməyimizə əsas verir ki, bu illərdə artıq Məmməd Nəsirbəyov dəyərli musiqiçi, ifaçı kimi tanınır, qəbul olunurdu. Eyni zamanda bu illərdə o, professor M.A.Kolotov, professor N.İ.Speranskidən, S.E.Ştrasserdən dərs alır, vokal ifaçılıqla yanaşı incəsənətin bir sıra sahələrinə də meyl edir, kompozisiya, alətşünaslıq kimi fərqli sahələrdə kurslarda iştirak edir, musiqişünaslıq sahəsində sistemli biliklərə yiyələnir. 1931-ci ildə Bakı Musiqi Texnikumunu bitirən Məmməd Nəsirbəyov sənədlərini P.İ.Çaykovski adına Moskva Kanservatoriyasına təqdim edir, bu mükəmməl təhsil ocağına qəbul olunur burada dakompozisiya və polifoniya istiqamətlərində təhsilini mükəmməlləşdirir. Eyni zamanda 1931-ci ildən etibarən onun çoxşaxəli fəaliyyətində əsas yerlərdən birini Radio Komitəsində solist kimi qızğın fəaliyyət göstərməsi təşkil edir. Qeyd

edək ki, Məmməd Nəsirbəyov mədəniyyət tariximizdə təkcə ifaçı sənətkar kimi yaşamır. Onun sənət eşqi, istedadı nəticəsində əzmkarlığı ilə əl atdığı hər sahədə nailiyyətlər qazanması ona verilə ilahi verginin bəhrələri idi. Belə ki, 1919-cu ildən 1932-ci ilə qədər müxtəlif fasilələrlə çalışdığı Opera teatrında xor artisti, solist kimi fəaliyyəti onun ifaçılıq mədəniyyətinin formalaşması, püxtələşməsində önəmli yerə sahib olmuşdursa, fərdi təşəbbüsü ilə spripka, fortepiano kimi musiqi alətlərində ifa etməyi öyrənməsi onun sonsuz marağının ifadəsi idi. O, müəllimi dahi Üzeyir bəyin xeyir-duası ilə gəldiyi, parladığı sənətdə öz ustadının ənənələrinə daim sadiqliyi ilə seçilməklə yanaşı öz yüksək insani keyfiyyətləri, vətəndaşlıq missiyası, əzmkarlığı, sənətə olan dərin məhəbbəti ilə öz yolunda əmin addımlarla addımlayırdı. Sözsüz ki, bu cür qaynar, coşğun yaradıcılıq yolu, özünüyetişdirmə səviyyəsi onun sənətinin ən yüksək səviyyədə dəyərləndirilməsinə də stimul verirdi. Belə ki, Məmməd Nəsirbəyov hələ 1941-ci ildə SSRİ Bəstəkarlar İttifaqının üzvü seçilmiş, milli musiqi sənətimizi daha geniş auditoriyalarda təbliğ etməklə yanaşı öz ifaçılıq mədəniyyətinin də geniş dairədə tanıtmışdır.

Belə bir işıqlı şəxsiyyətin, istedadlı, hərtərəfli mədəniyyət xadiminin irsinin öyrənilməsi də incəsənət tariximizin qarşısında duran mühüm məsələlərdən olmalıdır. Bu aspektdən yanaşaraq dəyərli incəsənət xadimi haqqındakı tədqiqatların cəmləşdiyi kitabda

tədqiqatçı yazır: “Təkcə onu qeyd etmək kifayətdir ki, XX əsrin ikinci yarısında uşaq musiqi məktəblərində təhsil alan hər bir şagird musiqi nəzəriyyəsi fənnini Məmməd Nəsirbəyovun yazdığı “Musiqi təlimi” dərsliyindən öyrənərək sehirli musiqi aləminə qədəm qoymuşdur. Təəssüf ki, musiqi tariximizə əsərləri ilə, eləcə də ictimai xadim kimi xidmətləri ilə töhfələr vermiş Məmməd Nəsirbəyov haqqında məlumatlar mətbuatda öz əksini layiqincə tapmamışdır” (10, s. 22).

Haqqındakı informasiyalardan da məlum olduğu kimi Məmməd Nəsirbəyov musiqi aləminə tarla gəlmişdir. Onun tarzən kimi ifaçılığa başladığı sənət yolunda çoxsaylı janrlara, alətlərə meyl etməsinə baxmayaraq bir məqam da musiqişünaslıqda öz əksini tapır ki, onun xalq musiqisindən qidalanan bütün yaradıcılığında milli-tarixi musiqi alətlərimizin nizamına uyğunluq daim gözlənilmişdir. Belə ki, onun “simfonik orkestr üçün yazdığı “Süita”, solist, qarışıq xor və orkestr üçün “Kantata”, simli kvartet üçün “Süita”, Azərbaycan Xalq Çalğı Alətləri Orkestri üçün “Naxçıvan” rəqs süitası, “Şənlik” üvertürası, “Nizami” süitası, “Qəhrəman”, “Səsə səs”, “Pambıq” dram əsərləri üçün musiqilərin partituraları, onun maraqlı, yüksək səviyyədə orkestləşmə etmək bacarığını nümayiş etdirir” (10, s. 28). Adlarını çəkdiyimiz, çəkmədiyimiz bütün əsərlərində Məmməd Nəsirbəyovun məhz xalq musiqisnə, milli musiqi mədəniyyətimizə bağlılığı duyulmaqla yanaşı dahi Üzeyir bəyin sənətinə,

şəxsiyyətinə ehtiram istedadlı, sədaqətli bəstəkarın həm yaradıcılığı, həm də həyatında duyulmaqdadır.

Məmməd müəllimin məhsuldar sənət, yaradıcılıq yolunun aparıcı sahələrindən birini də musiqişünaslıq əsərləri təşkil edirdi. Onun qeyd etdiyimiz dərsliyi ilə yanaşı onlarla musiqişünaslıqla bağlı əsərləri vardır ki, bu əsərlər bu gün də gənc istedadların musiqi sənətinin sirlərinə yiyələnməsində əvəzsiz rolunu saxlamaqdadır. Bu missiya düşünürük ki, ömrünün kamillik çağlarında pedaqoji prosesdə daha fəal iştirak edən Məmməd Nəsirbəyovun fərdi təşəbbüsünün, vətəndaş yanğısının, bir də yenicə formalaşan, inkişaf edən musiqi təhsili sahəsindəki boşluğun doldurulması istəyinin ifadəsi idi. Məhsuldar sənətkarın tərcümeyi-hal faktlarından aydın olur ki, o, ömrünün bir hissəsini də Bakıətrafı kənd və qəsəbələrdəki musiqi məktəblərində pedaqoji fəaliyyətə həsr etmişdir. Pedaqoji prosesdə müşahidə olunan dərslik, nəzəri ədəbiyyatların təmin olunması məqsədi ilə görkəmli pedaqoq ailə sənətinə sədaqət nümayiş etdirərək dərsliklərin, metodiki vəsaitlərin hazırlanması sahəsində məhsuldar fəaliyyət də göstərmişdir. Musiqi təhsili sahəsində bu gün də əhəmiyyətini itirməyən dərslikləri monoqrafiyaları içərisində “Azərbaycan musiqisində lad xüsusiyyətləri”, “Musiqi nəzəriyyəsi”, “Hamofon musiqisinin formalarına aid göstərişlər” kimi musiqi elminin ən dəyərli mənbəlidir. Pedaqoji prosesə könüldən bağlanan, çoxsaylı istedadlı gəncin yoluna işıq tutan Məmməd

Nəsirbəyovun müəllim kimi səmərəli fəaliyyətinin mühüm cəhətlərindən biri də yeni nəslin milli ruhda tərbiyə olunması təşkil edirdi. O, bütün varlığı ilə musiqi təəssübkeşi kimi musiqi mədəniyyətimizin təbliğinə, təşviqinə xidmət etməklə çoxsaylı davamçılarını yetirmişdir ki, onun həssas, qayğıkeş müəllim keyfiyyətlərindən bu gün də səmimiyyətlə bəhs olunmaqdadır. Məmməd Nəsirbəyovun mənalı ömür yolunun, milli mədəniyyətimizə, təhsilimizə, musiqi-ifaçılıq sənətimizə ən böyük xidmətlərindən biri də uzun müddət pedaqoji fəaliyyət göstərdiyi Bakıətraxı kənd və qəsəbələrdə musiqi məktəblərinin təşkili, bu məktəblərdə təlim və tədris prosesinin təşkili, lazımi avadanlıq, maddi-texniki baza, gərəkli kadrlarla təmini məsələlərinə diqqətlə yanaşması, təşəbbüskarlıqla yeni məktəblərin açılmasına, təmininə çalışmasıdır.

Bu kimi çoxşaxəli, yüksək mədəni, milli keyfiyyətlərinə, incəsənətimizin tərəqqisi naminə göstərdiyi xidmətlərinə görədir ki, bu gün Məmməd Nəsirbəyov irsinə, mənalı ömür yoluna, yaradıcılıq yoluna yenidən qayıtmaq zərurəti qaçılmazdır. Bu mənada fədakar müəllim, ifaçılıq sənətini yeni inkişaf xüsusiyyətləri ilə zənginləşdirən dəyərli sənətkar, milli musiqimizin araşdırıcısı, təbliğçisi, Azərbaycan musiqisini dünya səviyyəsində tanıdan, təbliğ edən, coxcəhətli fəaliyyət sahəsinə malik olan Məmməd Nəsirbəyov şəxsiyyətinə, elminə, sənətinə görkəmli musiqişünaslarımız, sənət adamlarımız tərəfindən yüksək dəyər verilməkdədir. Belə ki, məhz bu aspektdən yanaşaraq

Məmməd Nəsirbəyov haqqında fikirlərini qələmə alan dəyərli sənətkar Tofiq Bakıxanovun sözləri tam mənasında Məmməd müəllimin sənətinə sənətkar gözüylə verilən əsl qiymətdir. Görkəmli sənətkarın işıqlı əməlləri, nurlu simasını Azərbaycan Respublikasının Xalq artisti, professor Tofiq Bakıxanov xatırlayaraq deyir ki, "Məmməd Nəsirbəyovun bir çox janrlarda yazdığı musiqi əsərləri öz təravətini bu gün də itirməyib. Onlardan simfonik, xalq çalğı alətləri orksetri üçün, kamera, instrumental və vokal əsərlərini göstərmək olar. Hər dəfə onun əsərlərini dinləyəndə bəstəkarın nurlu siması gözlərimin önündə canlanır" (10, s. 57).

Bəli, bu dünyada heç bir şey baqi deyil. Mühüm olan odur ki, verilən ömür payını öz millətin, xalqın üçün xidmətdə keçirəsən, milli kimliyinin diqtəsi ilə milli mədəniyyətini yaşada, qoruya, təbliğ edə, inkişaf etdirə biləsən. Azərbaycan musiqi mədəniyyəti tarixində, ifaçılıq sənətinin tərəqqisində mühüm xidmətlər göstərmiş, çoxsaylı elmi əsərlərin, sənət əsərlərinin müəllifi olan, öz davamçılarının yaddaşında xoş xatirələrlə yaşayan dəyərli, istedadlı sənətkar Məmməd nəsirbəyov da Azərbaycan xalqının yaddaşında öz xidmətləri müqabilində əbədi yaşamaq səadəti qazanmışdır. Məhsuldar yaradıcılığı, qaynar fəaliyyət yolu, şərəfli ömür yolu ilə nəsillərə örnək olan Məmməd Nəsirbəyov 1980ci illərdə haqq dünyasına qovuşur. Xalqımız, mədəniyyətimiz qarşısında xidmətləri ilə, bir də məlahətli səsi ilə yaddaşlarda yaşamaq səadəti qazanır.

# YAŞAR SƏFƏROV

Naxçıvan torpağının yetirməsi olan, Azərbaycan incəsənəti, musiqisi üçün mühüm xidmətləri ilə mədəniyyət tariximizdə özünəməxsus yer və mövqe tutan dəyərli sənətkarlardan biri də Yaşar Səfərovdur. Köklü ənənələr üzərində formalaşan, inkişaf edən Naxçıvan musiqi-ifaçılıq sənətinin XX əsrdə yetirdiyi dəyərli sənətkarlardan olan Yaşar Səfərov bu gün belə yaddaşlarda xoş xatirələrlə yaşamaqdadırsa, bu istedadlı musiqiçinin sənətinin ecazkar təsiri ilə formalaşmışdır. Yaşar Səfərovun sənəti doğma Naxçıvandan şölələnərək nəinki Muxtar Respublika, ölkəmiz və ölkəmizin hüdudlarından kənarda da tanınmaqda, qəbul olunmaqdadır. Bu mənada bir məqama diqqət yetirmək gərəyi vardır ki, Yaşar Səfərov hələ sovet dönəmində bir sıra xarici ölkələrdə qastrol səfərlərdə olmuş, milli musiqi sənətimizi, Azərbaycan incəsənətini layiqli şəkildə təmsil etmişdir. Belə ki, bu səpkili fikirlərdən birində yazılır: “Kuba, Danimarka, Avstriya, Macarıstan, Türkiyə kimi ölkələrə qastrol səfərlərinə gedib ölkəsini təmsil edən Yaşar Səfərov bir neçə mahnı və romansın ilk ifaçısıdır. Müğənni 1974-cü ildə milli mədəniyyətimizin inkişafında uğurlarına görə Naxçıvan MR-nın əməkdar artisti, 1989-cu ildə isə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adlarına layiq görülüb. F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının solisti kimi əsgərlər qarşısında tez-

tez çıxışlar edən Yaşar Səfərov eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olub" (17). Bəlli olduğu kimi Yaşar Səfərov bir sıra mahnı və romansların ilk ifaçısı olmaqla yanaşı tədqiqatlarda onun mahir pedaqoq kimi fəaliyyət yolu da diqqət mərkəzinə çəkilmişdir. Eyni zamanda bir məqama da aydınlıq gətirək ki, Yaşar Səfərov Azərbaycan incəsənəti tarixində ilk duet ifaçılarından biri olmuşdur. Belə ki, Xalq artisti Elmira Rəhimova ilə Yaşar Səfərovun birgə layihələri olan duetlər zamanla daha profesional müstəviyə daşınmışdır. Bu istiqamətdə dəyərli bir fikirdə oxuyuruq: "Elmira Rəhimova və Yaşar Səfərov cütlüyü birlikdə bir neçə duet oxusa da, ən yaddaqalanı və bu gün də sevilən "Səadət" mahnısıdır. Elmira Rəhimova özü həmin duet haqqında belə danışır: "Azərbaycanda duet oxumağın əsas təməlini Yaşar Səfərovla biz qoymuşuq. Doğrudur, 50-60 il bundan əvvəl Xan əmi ilə Şövkət Ələkbərova "Keçən il gördüm səni" misrası ilə başlayan xalq mahnısını duet şəklində oxuyub. Amma onlardan sonra bizə qədər heç kəs müasir duet oxumayıb. Professional bəstəkar duetlərini Yaşarla mən ifa etmişik" (18). Yaxud bu iki duet ortağının ifasında möhürləşmiş "Səadət" mahnısı haqqında Ramiz Mirişlinin fikirləri daha maraqlı nüansdır: ""Səadət" mahnısını gənc ifaçılar da solo və ya duet şəklində ifa edir, amma Elmira Rəhimova ilə Yaşar Səfərovun səsinin bu mahnıya vurduğu möhürü hələ ki heç bir səs unutdurmaq gücündə deyil" (18.)

Bəstəkarı Ramiz Mirişli olan ilk duetin yaranması, Elmira Rəhimova və Yaşar Səfərovun bu ilk dueti ifa etməsinin tarixçəsini dəyərli sənətkarımız Ramiz Mirişli bu şəkildə xatırlayırdı:

-Eşitmişəm ki, Azərbaycanda duet janrında əsər yazan ilk bəstəçi sizsiniz.

- Azərbaycan Dövlət Televiziyası müsabiqə elan etmişdi. Mən də Azərbaycanda ilk dəfə duet janrına müraciət etdim. Orta məktəbi bitirən uşaqlar adətən buraxılış gecəsində gedirdilər gəzməyə, səhəri oyaq qarşılayırdılar. Mənim orta məktəb məzunlarına həsr etdiyim "Günəşi gözləyirik" duetim müsabiqədə birinci yerə layiq görüldü. Dueti Elmira Rəhimova ilə Yaşar Səfərov oxumuşdular... (2).

Yaşar müəllimin zəngin repertuarı, ifaçılıq məharəti, qarnar, coşğun səsi, fərdi, özünəməxsus ifaçılıq məharəti onun incəsənət tariximizdə yalnız ifaçı kimi deyil, eyni zamanda mahir pedaqoq kimi də tanıtmışdır.

Yaşar Səfərov Muxtar Respublikanın dilbər guşələrindən olan Şahbuz rayonunun Çay Şahbuz kən-dində, 1940-ci ildə dünyaya gəlmişdir. 1943-cü ildə ailə Naxçıvan şəhərinə köçür, Naxçıvan şəhər 5 saylı məktəbdə təhsil almağa başlayır. Uşaq yaşlarından musiqiyə olan marağını nəzərə alan marifpərvər İdris Səlimovun məsləhəti ilə Yaşar Pionerlər evində Səfər Rəcəbovun xanəndəlik sinfinə yazılır. Bu hadisəni haqqında tədqiqatçı N.Quliyev yazır: “Tez-tez Naxçıvan

pioner və məktəblilər evinə yolu düşən balaca Yaşarı ömürlük musiqiyə bağlayan da bu musiqi-sənət ocağı olub. Yaşarın təravətli səsini eşidən tarzən Səfər Rəcəbov, onu rəhbərlik etdiyi ansambla dəvət edir və yenicə bəstələdiyi “A dostlar” mahnısını Yaşara öyrədir. Bu mahnı Yaşarın konsert salonunda oxuduğu ilk mahnısı, konsert fəaliyyətinin ilk vəsiqəsi olur. 1950-ci illərdə kiçik yaşlı bir məktəbli Naxçıvanda keçirilmən məktəblilərin olimpiadasında məlahətli səsi ilə bəstəkar M.Məmmədovun diqqətini cəlb edir. Bu diqqət, onun Naxçıvan Pioner və Məktəblilər Evinin “Əlvan çiçəklər” Mahnı və Rəqs Ansamblının tərkibində geniş konsert salonlarında alqışlarla qarşılanan solo konsertləri ilə nəticələnir” (9, s. 48-49). Qısa zamanda Muxtar Respublikanın mədəni həyatında hadisəyə çevrilən “Əlvan çiçəklər” mahnı və rəqs ansamblının aparıcı solistlərindən biri olan Yaşar Səfərov paytaxt mühitində təşkil olunan musiqi müsabiqələrinə qatılır və bu kimi məqamlar sənətə aşiqliklə yanaşan Yaşarın istedadını üzə çıxarır və onun sənətin arxasınca daha əzmlə getməsinə vəsilə olur. Bu həvəs və qətiyyətlə Yaşar Səfərov təhsilini davam etdirmək üçün Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə qəbul olunur. Yaşar Səfərovun təhsilinin bu dövründən bəhs edən Rəfail Kərimov yazır: “Lirik-tenor (kiçik oktavanın “lya-si-bemol” səsindən II oktavanın “do” səsinə qədər olan səs diapozonudur) səs tembrinə və diapozonuna malik Y.Səfərovun ibtidai musiqi təhsilinin, səs diapo-

zonunun, səs aparatının refleks hərəkətinin yerində olması, xüsusi ilə də səsləri düzgün intonasiya etməsi Firudin müəllimi çox sevindirirdi. Bu göstəricilərin yerli-yerində olması Yaşarın II kurs tələbələri ilə yanaşı təhsil almasına əsaslı köməklik göstərən amillər oldu. Müəlliminin verdiyi əsərlərin ifasına gəldikdə isə Yaşar Səfərov hər baxımdan digər şagirdlərdən çox üstün görünürdü...” (9, s. 99). Yaşar Səfərov bütün varlığı ilə bağlı olduğu sənət yolunda elə ilk dövrlərdən etibarən əzmkarlığı ilə böyük ideal uğrunda adıımlamış, nailiyyətlər əldə etmişdir. Vokal ifaçılıq sənətinin dəyərli nümayəndəsi Naxçıvan dövründə olduğu kimi Bakı dövr yaradıcılığında da fərdi yaradıcılıq xüsusiyyətləri ilə hər zaman diqqəti cəlb edirdi. Onun ecazkar səsi, tembri, ifaçılıq mədəniyyətinə verilən mükafatın ifadəsi idi ki, 1959-cu ildə Azərbaycan Radio və Televiziya Komitəsinin xor kollektivinə qəbul olunur, bu vəsilə ilə görkəmli sənətkar Səid Rüstəmovla tanışlıq, yaradıcılıq əlaqələri başlayır. Bu yaradıcı əməkdaşılığın gözəl nəticəsi olan “Ağ çiçəklər”, “Yollar”, ”Bənzərsən”, “Nə deyim”, “Şeir deyilmi”, “Qurban adına”, “Sənindir”, “Sevgi mahnısı”, “Oxu tar” kimi dəyərli mahnıların bir çoxunun ilk ifaçısı Yaşar Səfərov olmuşdur. Qeyd edək ki, Yaşar Səfərov bu illərdə öz məlahətli səsi, ifaçılıq mədəniyyəti, səhnə xarakteristikası etibarilə tamamilə yetkinləşməklə yanaşı onun ifaçılığını bütün Azərbaycan-da tanıyır, qəbul edir, hörmətlə yanaşırdılar. Belə qaynar mühitdə ali təhsil almaq hardasa şərt idi və Yaşar Səfərov

da 1962-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirdikdən sonra Azərbaycan İncəsənət İnstitutuna,musiqili komediya aktyorluğu ixtisasına qəbul olunur. Bu adi faktın timsalında deyək ki, bununla da görkəmli sənətkarın həyatı və sənət fəaliyyətində ikinci plan açılır. İfaçılıq sənəti, vokal sənətin yollarında əminliklə addımlayan Yaşar Səfərovun sənət həyatında aktyorluq kimi məsuliyyətli, xüsusi qabiliyyət tələb edən ikinci bir istiqamət açılır. Elə bu günlərdə Yaşar Səfərov hərbi xidmətə çağırılır və bəxtindən burada da öz sənətinə yanış bir sahəyə, hərbi dairənin mahnı ansamblına təyinat alır. Onun haqqındakı tədqiqatlarda da göstərildiyi kimi burada Yaşar müəllimin fəaliyyətinin yeni dövrü başlayır ki, bu illərdə o, Azərbaycan müsiqisini dünyanın bir sıra ölklərində böyük coşğunluqla təmsil və təbliğ edir. Və nəhayət 1965-ci ildə hərbi xidmətdən qayıdan Yaşar Səfərov onu gözləyən tələbəlik və Dövlət Xalq Çalğı Alətləri Orkestrindəki işinə qayıdır. Bundan sonrakı dövrü Yaşar Səfərovun sənət fəaliyyətinin intibah dövrü kimi qiymətləndirən tədqiqatçı Rəfail Kərimov yazır: "Bir-birinin ardınca ifa olunan yeni mahnılar Y.Səfərovu Azərbaycanda dillər əzbəri edir. Müğənninin ifa etdiyi mahnılar hər gün televiziya və radionun müxtəlif proq-ramlarında dəfələrlə səslənirdi. Təkcə onu demək kifa-yətdir ki, 70-ci illərin əvvəllərinədək müəğənni müxtəlif bəstəkarların 500-dək mahnısını ifa etmiş və lentə yazdır-mışdır. İnamla demək olar ki, Y.Səfərov yaradıcılığının

intibah dövrünü keçirirdi. Vokal yaradıcılığında müğənninin bir yeni dəsti-xətti də Azərbaycanda çox az ifaçıların müraciət etdiyi duet ifaçılığına müraciət etməsidir” (5, s. 102). 1970-ci ildə Yaşar müəllim İncəsənət İnstitutunu bitirir, buradakı yekun işindəki məşhur Məşədi İbad rolu ilə onun sənət dünyasında aktyorluq sənətinə son müraciəti olur. Qeyd edək ki, elə həmin ildə Yaşar Səfərovun uzun illərin gərgin, məhsuldar əməyi qiymətləndirilir, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin solisti kimi bir vəzifəyə təyin olunur. Bu idi örnək sənət yolunun qürurverici növbəti uğuru. Amma bütün varlığı ilə sənətə bağlı olan Yaşar müəllimin haqqındakı tədqiqatlardan da bu qənaətə gəlmək olur ki, Yaşar Səfərov bu məqamı daha böyük məsuliyyət bilir, daha da ciddi-cəhdlə çalışmağa başlayır. İllər biri-birini əvəz etdikcə Yaşar Səfərov da sənət yollarında öz məharətini, dəsti-xəttini daha dərindən, incə detalları ilə göstərə bilir, artıq onun sənətinin yaxşı mənada sehrinə düşməyən az-az adamlar tapılardı o illərdə. Bu da bir gerçək idi ki, istedad tükənməz olsa da ömür tükənəndir. Tanrının verdiyi istedadı düzgün qiymətləndirmək, dəyərləndirmək, xalqa nümunəvi xidmət etməyin bir yolu da davamçılar yetirmək, istedadlı gəncliyə, yetişməkdə olan nəslə pedaqoji ustalıqla sənətin sirlərini öyrətməkdən keçir. Yaşar Səfərov da 1989-cu ildən etibarən pedaqoji prosesə qoşulur, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində müəllim kimi

uğurla fəaliyyət göstərməyə başlayır, gənc vokalistlərin yetişməsi üçün bütün varlığı ilə çalışır. Bu səbəbdəndir ki, bu gün səhnədə fəaliyyəti ilə diqqət cəlb edən, uğurlu sənət kariyerasını davam etdirən bir sıra vokalistlər Yaşar Səfərov sənətini, onun müəllim kimi yüksək, ali keyfiyyətlərini məmnunluqla, minnətdarlıqla xatırlayır, onun sənətinə ehtiramlarını ifadə edirlər.

Yaşar Səfərov ömrü, sənəti nəinki onun doğulub boya başa çatdığı qədim Naxçıvan musiqisinin ümumilikdə Azərbaycan vokal ifaçılığının ən dəyərli, ən gözəl nümunələrindən, zirvə nöqtələrindən biri olmuşdur. Səhnədə keçən sənətkar ömrünə sənətkarın sağlığında yüksək qiymət verilmiş, bir sıa ali fəxri ad və orden, medalla təltif olunmuşdur. Bu sırada 1974-cü ildə elə sənətkarın doğulub böyüdüyü Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti adı da, 1989-cu ildə layiq görüldüyü Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı da böyük, istedadlı sənətkarın fəaliyyətinə, sənətinə verilən yüksək dəyərin ifadəsi olmuşdur. Azərbaycan öz dövlət müstəqilliyini qazandıqdan sonra Yaşar Səfərovun sənəti müstəqil dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmiş, siyasi hakimiyyətinin hər iki dövründə Azərbaycan mədəniyyətinin, incəsənətinin vurğunu, hamisi olan, bütün zamanların ən böyük azərbaycanlısı, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin sərəncamı ilə 2002-ci ildə Yaşar Səfərov

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Yaxşı deyib ulularımız, qabiliyyətli insanlar uzun yaşamasa da qabiliyyət uzun yaşayır. Bu mənada Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident təqaüdçüsü Yaşar Səfərov ömrü də 2007-ci ildə başa çatır. Qəfil ölüm onu sənətsevərlərdən, Azərbaycan səhnəsindən alır. Amma bu gün Azərbaycan xalqının yaddaşında özünəməxsus ifaçılıq mədəniyyəti, səs tembri, səhnə mədəniyyəti, vokal sənətdə yaratdığı məktəblə yaşayan Yaşar Səfərovun sənət yolu xoş xatirələrlə yaşadılır. Yetişdirdiyi çoxsaylı vokalistlərin timsalında səhnəmizdə yaşamaqda olan Yaşar müəllim imza atdığı ilklərlə, duetləri ilə, səsinin ərmağan qaldığı lent yazıları ilə Azərbaycan xalqının yaddaşında yaşamaqdadır və yaşaya-caqda.

# ƏLİ MURADOV

Yaşı min illərə hesablanan Azərbaycan mədəniyyəti görkəmli sənət adamlarının fəaliyyəti ilə öz inkişafını yeni mərhələyə daşımaqdadır. Tarixən görkəmli sənət adamları, alimlər, şairlər, siyasətçilər yetirən qədim Azərbaycan torpağı olan Naxçıvanda da yetişib formalaşan sənət adamları milli mədəniyyətimizin tərəqqisinə özünəməxsus şəkildə güc qatmışdır. XX əsrdə incəsənətimizin, ifaçılıq sənətinin inkişafına özünəməxsus şəkildə töhfələr verən, Naxçıvan torpağının yetirməsi olan dəyərli sənətkarlardan biri də Əli Muradovdur. 1938-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Alagöz Məzrə kəndində dünyaya gələn Əli Muradovun uşaqlığı həmyaşıdları kimi İkinci Dünya Müharibəsinin keçməkeşli günlərinə təsadüf etdiyindən o, kiçik yaşlarından həyatın hər bir məhrumiyyətini görə-görə böyümüş, fərdi əməyə erkən alışan Əlinin yaddaşında bu illər acılı-şirinli xatirələrlə qalsa da tanrının verdiyi istedad, oxumaq həvəsi yalnız ailə Bakıya köçdükdən sonra baş qaldırmağa imkan tapır. 1947-ci ildə Bakıya köçdükdən sonra Əli içində illərlə gizlətdiyi sənət eşqinin arxasınca getmək qərarına gəlir. Xətai adına Musiqi Dərnəyinə üzv yazılır və bu yol onu vokal ifaçılıq məktəbinin istedadlı nümayəndəsi kimi şöhrətli bir mərhələyə aparırdı. Tar dərnəyində Xalq mahnılarını gözəl bir şəkildə işləyən Əli Muradov qısa zamanda

Mədəniyyət Sarayındakı Xalq Çalğı Alətləri Orkestrində ifaçı kimi də fəaliyyət göstərməyə başlayır. Bu illərdə bir peşəyə sahib olmaq niyyəti ilə 1952-ci ildə sənət məktəbinə daxil olur, 1954-cü ildə Çilingər peşəsinə sahib olur, Keşlədə Maşınqayırma Zavodunda bir müddət işləyir. Amma içindəki sənət eşqinə güc gələ bilmir. Müəllimi, Azərbaycan Respublikasının Xalq artisti Cahangir Cahangirovun da məsləhəti ilə o, ömrünü vokal sənətə bağlayır. Bu illərdə Əli Muradov gənc vokalist kimi Adil Gərayın, Səid Rüstəmovun və Azərbaycanın tanınmış digər bəstəkarlarının mahnılarını sevə-sevə ifa etdikcə öz sənət texnikasını zənginləşdirir, səs tembrini mükəmməlləşdirir, eyni zamanda ayrı-ayrı konsert salonlarında ifa etdiyi mahnılarla geniş dairədə tanınmağa, rəğbətlə qarşılanmağa başlayır. Bu yolda əminliklə addımlayan gənc vokalist sənəti ilə Azərbaycanın hüdudlarını aşır, böyük auditoriyalarda öz məlahətli səsi, səhnə mədəniyyəti, sənət texnikası ilə dərin hörmət qazanır. Sözsüz ki, mövcud şərait istedadla yanaşı təhsil də tələb edirdi. Əli Muradov da 1958-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin vokal şöbəsinə daxil olur. Onun səsi haqqında ayrı-ayrı tədqiqatlarda maraqlı fikirlər səsləndirilmişdir ki, bu da həmin dövrün sənət mühitində həqiqi mənada tapıntı idi. Belə ki, zəhmətkeş tədqiqatçı R.Kərimov yazır: “Əli Muradovun səsi tembrinə görə lirik-dramatik tenor olmaqla yanaşı, diapozon etibarilə bu dövrdə iki oktava, yəni birinci

oktavanın “do” səsindən üçüncü oktavanın “do” səsinədək olan səs həcmini əhatə edirdi. Tam lirik-dramatik tenor səs diapozonuna sahib olmaq üçün o, səs diapozonunu aşağıya doğru böyük sekunda genişləndirərək kiçik oktavanın “lya, si bemol-si” səslərini də əlavə etməli idi” (5, s. 87). 1961-ci ildə hərbi xidmətə çağırılan Əli Muradov hərbi xidmət illərində də zabitlər evində qismən də olsa öz sənətini davam etdirir, 1964-cü ildə xidməti başa vurub Bakıya qayıdır, təhsilini davam etdirir. Orta İxtisas Musiqi Məktəbində təhsil dövründə də Əli Muradov bir sıra konsert proqramlarında fəal iştirak edir, çıxış etdiyi hər bir auditoriyada öz ifaçılıq məharətini, səhnə mədəniyyətini uğurla təqdim edir. 1967-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirən Əli Muradov həmin ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını vokal ifaçılıq şöbəsinə daxil olur. Artıq professional şəkildə səhnə fəaliyyətinə başlayan Əlinin sənət amalı, sənət eşqi onu zirvələrə doğru aparırdı. Qazanılan şərəfli bir ömür, sənətdə keçər biri-birindən uğurlu illər olmuş, Əli Muradov Azərbaycan musiqi mədəniyyətini ölkəmizdə də, ölkəmizdən kənarda da layiqli şəkildə təmsil edərək milli musiqi sənətimizi, vokal ifaçılığı inkişaf etdirmiş, zənginləşdirmişdir. Onun sənətinə verilən qiymətin bir bariz ifadəsi 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı idisə digər bir qiymət belə idi: “Sibirdən Baltikyanı respublikalaradək, Uraldan Ukraynayadək, orta Asiya,

Volqaboyu, Moskvaətrafı və digər regionlardankı yüzlərlə şəhərdə gözəl çıxışları ilə müğənni tamaşaçıları heyran etməklə yanaşı, Azərbaycan musiqi mədəniyyətini də layiqincə təmsil və təbliğ etmişdir” (5, s. 92).

Bəli, tanrının verdiyi istedad, özünün sənət eşqi, əzmi, iradəsi ilə ona verilən ömür hayını Azərbaycan milli musiqisinin inkişafına, tərəqqisinə, təbliğinə həsr edən Əli Muradov vokal ifaçılıq sahəsində sayılıb-seçilən dəyərli, istedadlı müğənni kimi Azərbaycan musiqi sənəti tarixində silinməz iz qoymuş, sənətsevənlərin, bütünlükdə xalqımızın yaddaşında əbədiyaşarlıq qazanmışdır.

# HƏSƏNAĞA QURBANOV

Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında mühüm xidmətləri ilə yadda qalan, Naxçıvan torpağının yetirməsi olan istedadlı sənətkarlardan biri də Həsənağa Qurbanovdur. Bəstəkar, pianoçi, pedaqoq və gözəl insan olan Həsənağa Qurbanov 1955-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Uşaq yaşlarında musiqi sənətinə meyl edən, fitri istedadı ilə seçilən Həsənağa 1965-ci ildə Naxçıvan şəhərində yeganə olan uşaq musiqi məktəbində fortepiano sinfinə qəbul olunur. Məsuliyyəti, qabiliyyəti ilə qısa zamanda kollektivin diqqətini cəlb edən yeniyetmə Muxtar Respublikanın mədəni həyatında parlamağa başlayır. Mədəniyyət evində C.Məmmədquluzadə adına Dövlət Musiqili Dram Teatrında, Həmkarlar İttifaqı nəzdində Xalq Çalğı Alətləri Ansamblında pianoçu kimi fəaliyyətə başlayan gənc hələ bu illərdə öz məharəti ilə sənətsevərlərin diqqətini cəlb etdiyi kimi sənətkarlar aarasında da özünə dərin rəğbət hissi formalaşdırır. Bu inam ilə Həsənağa Qurbanov sənədlərin 1972-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə verir, 1972-1976-cı illərdə burada təhsil alan Həsənağa müəllim məktəbdə oxuduğu dövrdə də, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil aldığı 1976-1981-ci illərdə də öz sənət duyumu, qabiliyyəti, davranışları ilə hər iki kollektivdə dərin hörmət qazanır. 19787-ci ildən çalışdığı

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında əmək fəaliyyətini davam etdirir, bir sıra mədəni-kütləvi tədbirlərdə fəal şəkildə iştirakı, musiqi duyumu ilə respublikanın mədəni həyatında fərqlənir. Tanrının verdiyi fitri istedad, musiq duyumu, ifa mədəniyyəti ilə fərqlənən Həsənağa Qubanov qısa zamanda Musiqili Komediya Teatrının baş drijoru olur. Onun ömür və sənət yoluna nəzər saldıqda bir sıra əlamətdar məziyyətlər diqqəti cəlb edir. Belə ki, Həsənağa Qurbanov mahir pianoçu, dirjor, televiziya proqramlarında aparıcı, pedaqoq, təşkilatçı, bəstəkar kimi respublikanın mədəni həyatında tanınan sənətkara daha çox şöhrət gətirən "Təranə" və məhşur sənətkar Gülarə Əliyevanın rəhbərlik etdiyi "Dan ulduzu" instrumental ansamblında pianoçu kimi çıxışı olmuşdur. Sənət dostlarının yaddaşında onun piano ifaçılığı hələ də şirin xatirələrlə yaşadılmaqdadır.

Həsənağa Qurbanov gözəl pedaqoq və təşkilatçı kimi də doğulduğu Naxçıvan Muxtar Respublikasının mədəni həyatında fərqlənməkdədir. Belə ki, istedadlı dirjor, bəstəkar Həsənağa Qurbanov 1983-1985-ci illərdə Naxçıvan Orta İxtisas Musiqi Məktəbinin direktoru kimi muxtar respublikanın musiqi təhsilinin inkişafına öz töhfəsini verdiyi kimi çoxsaylı istedadlı gəncin də sənət yolunun işıqlanmasında müstəsna xidmətlər göstərmişdir. Məhz bu illərdə direktor kimi çalışdığı musiqi məktəbində Həsənağa müəllimi öz yetirmələri, sənət dostları, eləcə də muxtar respublikanın mədəni müəssisələrində çalışan

dəyərli sənətkarlar nəcib hislərlə xatırlayır, onun pedaqoji ustalığından, gözəl insani keyfiyyətlərində ağız dolusu söz açırlar. Belə ki, Dəyərli tədqiqatçı Nazim Quliyev Naxçıvan musiqi mədədniyyətinin fəaliyyət yolundan, 1937-ci ildə üzeyir bəyin təşəbbüsü ilə yaradılan ilk uşaq musiqi məktəbinin fəaliyyət yolundan, bu məktəbə rəhbərlik edən dəyərli pedaqoq-təşkilatçılardan bəhs edərkəb Həsənağa Qurbanovun da adını xatırladır və qeyd edir ki, "...Bu sənətkarlar eyni zamanda pedaqoji fəaliyyət göstərək yeni musiqiçilər nəsli yetirmişlər" (9, s. 55-56).

Qaynar, məhsuldar ömür və sənət yolu keçən Həsənağa Qurbanovun ömrünün bundan sonrakı illəri böyük məhəbbətlə bağlandığı "Dan ulduzu" instrumental ansamblı olur. 1991-ci ildə ansamblın bədii rəhbəri və ansamblda pianoçu kimi fəaliyyət göstərən Həsənağa müəllim ansamblın uğurlu fəaliyyətinin qarantı idi desək yanılmarıq. Bəstəkarlıq isə görkəmli sənətkarın bütün fəaliyyəti boyu davam etdirdiyi bir sənət istiqaməti olmuşdur. Onun bəstələdiyi "Ana laylası", "Körpə səsi" kimi mahnılar respublikanın tanınmış müğənnilərinin ifasında uzun müddət sənətsevərlərə zövq vermişdir. Qeyd edək ki, onun musqili komediya teatrındakı fəaliyyət yolundan, teatr təşkilatçılığında bəhs edən Rəfail Kərimov eyni zamanda onun vokal ifaçılıq sənətinə dərindən bələd olduğunu da vurğulayır: "Uzun illər Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında fəaliyyət göstərən gənc bəstəkar truppaya yaxşı bələd

olduğundan, aktyorların yaradıcılıq imkanlarını "özlərindən" daha yaxşı hiss etdiyindən əsərlərində ifa üçün çox yaxşı partiyalar yaradırdı. Vokal ifaçılıq sənətini dərindən bilən sənətkar hər bir ifaçının səs diapozonunu nəzərə alır, onları partiyalarını məharətlə ifa etməyə şərait yaradırdı. Simfonik orkestrə gəldikdə isə deməliyəm ki, musiqiçi tamaşalarında orkestlə vokal səhnələrin vəhdətində yüksək peşəkarlıq göstərmişdir" (5, s. 130). Onu da qeyd edək ki, Həsənağa Qurbanovun vokal ifaçılığa dərindən bələdliyi onun fəaliyyəti ilə yanaşı yaradıcılığında da müşahidə olunmaqla əsərlərinin yüksək sənət məziyyətləri, fərdi cizgilər yaratmışdır.

Həsənağa Qurbanovun dəyərli sənət yoluna sənət dostları, sənətsevərlər olduğu kimi dövlətimiz də yüksək qiymət vermiş, milli mədəniyyətimizin hamisi, ulu öndər Heydər Əliyev sənət adamları ilə görüşlərində Həsənağa Qurbanov yoluna da hörmətlə yanaşmışdır. Görkəmli sənətkarın yaradıcılığı və fəaliyyətinə verilən ən böyük dəyər isə 1998-ci ildə dəyərli sənətkarın Əməkdar incəsənt xadimi adı ilə təltif olunması olmuşdur. Qeyd edək ki, peşəkarlıq, pedaqoji təcrübə, yüksək əzmkarlıq, sənətə dərin məhəbbət hisləri ilə yaşayan Həsənağa Qurbanov 2001-2007-ci illərdə Bakı şəhər Mədəniyyət İdarəsinə rəhbərlik etdiyi dövrlərdə də obyektivliyi ilə tanındığı kimi tələbkarlığı ilə də diqqəti cəlb etmiş, paytaxtın mədəni həyatının tərəqqisi naminə bütün gücü ilə çalışmışdır. Beləcə gərgin sənət mübarizələri, uğurlu

karyerası, yüksək istedadı, insani keyfiyyətləri ilə sənətsevərlərin yaddaşında əbədi məskən tutan, Azərbaycan musiqisini, mədəniyyətini nəinki ölkədə hətta ölkə xaricində uğurla təmsil edən görkəmli drijor, bəstəkar, pedaqoq, təşkilatçı, pianoçu Həsənağa Qurbanovun ömür yolu 2007-ci ildə tamamlansa da onun kövrək, həzin xatirəsi daim xalqımızın, sənətsevərlərin yaddaşında yaşamaqdadır. Qeyd edək ki, Həsənağa Qurbanovun vaxtsız vəfatı ölkə ictimaiyyəti, mədəniyyət xadimləri üçün də gözlənilməz olmuşdur. Dünyasını yəşməsindən təsirlənilərək yazılan məqalədə qeyd olunur: "Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir.

Azərbaycan Tcleviziyasının "Dan ulduzu" instrumental ansamblının bədii rəhbəri, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Həsənağa Əli oğlu Qurbanov noyabr ayının 6-da 52 yaşında qəflətən vəfat etmişdir…

Azərbaycan milli musiqisinin ölkəmizdə və respublikanın hüdudlarından kənarda tanınmasında və təbliğində onun böyük xidmətləri olmuşdur" (**3**). Dəyərli sənətkarın xatirəsi onun sənət dostlarının, sənətsevərlərin yaddaşında yaşamaqdadır. İstedadlı musiqi ustasının xatirəsi ayrı-ayrı zamanlarda ölkə səviyyəsində yad edilmişdir ki, bu tipli tədbirlərdən biri görkəmli pianoçu Həsənağa Qurbanovun anadan olmasının 60 illik yubileyinin keçirilməsidir. Yubiley haqqında yazılır:

“Qeyd olunub ki, Həsənağa Qurbanov 1955-ci ildə Naxçıvan şəhərində anadan olub. 1976-cı ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas musiqi məktəbini, 1981-ci ildə isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasını bitirib. Əmək fəaliyyətinə 1978-ci ildən Naxçıvan şəhər Mədəniyyət evində müəllim və Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında pianoçu kimi başlayan sənətkar, sonralar Azərbaycan Dövlət Musiqili Teatrında aparıcı dirijor, Naxçıvan Musiqi Texnikumunun direktoru, Bakı Şəhər mədəniyyət və Turizm İdarəsinin rəisi və Azərbaycan Televiziyasının “Dan ulduzu” instrumental ansamblının bədii rəhbəri vəzifələrində çalışıb. O, 2007-ci il noyabrın 6-da Bakıda vəfat edib” (23).

Dəyərli sənətkar, nəcib insan olan, Naxçıvan torpağının istedadlı yetirməsi Həsənağa Qurbanov həyatı və fəaliyyəti boyu doğma Naxçıvana dərin tellərlə bağlı olduğu kimi, onun sənəti də Naxçıvanda dərin hörmət və ehtiramla yad edilmişdir. Bu mənada sənətşünas Cəlil Vəzirov və Jalə Əliyevanın Həsənağa Qurbanov sənətinə verdiyi qiymət əlamətdardır: “İfaçılıq sənəti sahəsində öz dəsti-xətti, sənətdə öz yeri olan sənətkarlardan biri də Həsənağa Qurbanovdur. O, isetadadlı dirijor, gözəl pianoçu, “Dan ulduzu” instrumental ansambılının bədii rəhbəri, Respublikanın musiqi mədəniyyətinin layiqli nümayəndəsi olmaqla, Azərbaycan Respublikasının əmək-

dar incəsənət xadimi, Bakı şəhər Mədəniyyət və Turizim İdarəsinin rəisidir” (16, s. 99).

“Son illər kollecin uğurları getdikcə artmaqdadır. 2004-cü ildə orta ixtisas musiqi məktəbləri arasında keçirilən və 12 təhsil ocağının iştirak etdiyi müsabiqədə 32 mükafat yerindən 16-nı Musiqi Kollecinin tələbələri tutmuşlar. YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə keçirilən muğam ifaçılığı müsabiqələrində 2005-ci ildə 20 iştirakçıdan 14-ü, 2007-ci ildə isə 20 nəfərdən 12-si məhz bu kollecin tələbələri olmuşdur. Bu möhtəşəm təhsil ocağının məzunu Təyyar Bayramov isə 2009-cu ildə Bakıda keçirilən Beynəlxalq Muğam Festivalının qalibi olmuş və "Qran-Pri" mükafatına layiq görülmüşdür” (1).

# AFƏT NOVRUZOV

Naxçıvan musiqi mədəniyyətinin, ifaçılıq məktəbinin yetirmələrindən biri, istedadlı tarzən, qayğıkeş pedaqoq Afət Novruzov 1943-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. İlk təhsilini Naxçıvan şəhər 4 saylı məktəbdə alan Afət kiçik yaşlarından musiqiyə dərin rəğbət bəsləmiş, məktəbdə oxuduğu illərdən indiki Heydər Əliyev adına Uşaq-gənclər Yaradıcılıq Mərkəzinə (Pionerlər Evi) gedir, burada xalq çalğı alətləri ansamblı, orkestr, "Əlvan çiçəklər" mahnı və rəqs ansamblında məşğələlərdə iştirak edir, burada görkəmli sənətkar Səfər Rəcəbovdan tar çalmağı öyrənir. Amma professional şəkildə musiqi ilə məşğul olmaq onun ən böyük arzusu olmuşdur. Bu səbəbdən də 1956-cı ildə Naxçıvanda bu illərdə tək olan Naxçıvan şəhər Uşaq Musiqi Məktəbində təhsil almağa başlayır. Burada Rəşid Məmmədov, Yusif Əliyevin sevimli tələbələrindən birinə çevrilən Afət Novruzova böyük ümidlər bəslənirdi. Gələcək vəd edən yeniyetmə təhsil ala-ala əmək fəaliyyətinə başlayır, Naxçıvan şəhər pionerlər Evində, Naxçıvan Musiqili Dram Teatrında konsert və proqramlarda fəal iştirak etməklə artıq muxtar respublika səviyyəsində tanınan, qəbul olunan tarzən kimi uğurlara imza atır. Amma düşüncələrindəki yola çatmaq üçün təhsilini davam etdirmək gərəkli olduğunu dərk etdiyi üçün Asəf Zeynallı adına Bakı Musiqi Kollecinə daxil olur və burada qızğın

tələbəlik dövrü başlayır. Azərbyacanda bu dövrdə musiqi mədəniyyəti, musiqi təhsili yüksək dinamika ilə inkişaf edirdi. Zamanın çağırışına səs verən istedadlı ifaçı ömrünün qalan hissəsini də ifaçılıq sənəti və pedaqoji prosesə həsr edir. 1964-cü ildən etibarən Afət Novruzov əmək fəaliyyətinə başlayır. Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Xalq Çalğı Alətləri ansamblında o dövrün böyük sənətkarları Əhsən Dadaşov, Hacı Məmmədovla birlikdə çalışan Afət Novruzov eyni zamanda bu illərdən etibarən Bakı, Xaçmaz, Dəvəçi rayonlarında musiqi məktəblərində pedaqoji proseslə də sıx məşğul olur. 1967-ci ildə qəbul olunduğu Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında Səid Rüstəmovdan sənətin sirlərini öyrənir, paralel olaraq pedaqoji fəaliyyətini davam etdirir. Qeyd edək ki, ötən əsrin 70-80-ci illərində Afət Novruzov təcrübəli, savadlı, təşkilatçı müəllim kimi diqqəti cəlb edir, ona müəllim kimi dərin rəğbət bəslənilirdi. Dövrə aid sənədlərdə də ifadəsini tapdığı kimi Bülbül adına Orta İxtisas Musiqi Məktəbinə, daha sonra indiki Bakı Musiqi Akademiyasına işə dəvət olunurdusa bu yalnız onun təcrübəli müəllim kimi ad qazanmasından irəli gəlirdi. Bir məqamı da xüsusilə qeyd etmək gərəyi vardır ki, Afət Novruzovun yetişdirdiyi, sənətin sirlərini öyrətdiyi çoxsaylı musiqiçilər, musiqişünaslar bu gün ölkəmizin ayrı-ayrı bölgələrində yetişməkdə olan yeni nəslə musiqi sənətinin elmi əsaslarını öyrədirlər. Bu bir müəllim üçün ən böyük

mükafat idi, Afət müəllim də pedaqoji prosesdə bu prinsipi özünə həyat amalı seçmişdi. Elə bu səbəbə görə bu gün respublikanın mədəni ictimaiyyəti də, onun yetirmələri də Afət Novruzovu dərin məhəbbətlə, ehtiramla xatırlayırlar.

Azərbaycan milli musiqi sənətinin, musiqi tədrisinin inkişafında, yaşadılmasında əvəzsiz xidmətləri ilə ictimaiyyətin yaddaşında əbədilik qazanan Afət Novruzovun fəaliyyətinin mühüm tərkib hissələrindən birini də elmi, elmi-publisistik və metodiki işləri təşkil edir. Belə ki, Afət Novruzov uzun illərin səmərəli fəaliyyətinin bəhrəsi olan, pedaqoq kimi müşahidələrinin cəmləşdiyi bir sıra elmi-metodiki vəsait hazırlayıb nəşr etdirmişdir ki, bu tədris vəsaitləri musiqi təhsili müəssisələrində tədris olunmaqla gələcək nəsillərin formalaşmasında əvəzsiz rol oynayır. Afət Novruzova tədris prosesində nəşr etdiyi metodiki işlər olduğu qədər elmi və publisistik yaradıcılığı da hörmət qazandırmışdır. Onun elmi irsinə diqqəti cəlb edən tədqiqatçı rəfail Kərimov yazır: "Bütün bunlarla yanaşı, Afət müəllim elmi yaradıcılığa da böyük maraq göstərmiş, musiqi tədrisinə dair bir sıra elmi-publisistik məqalələrin, metodik tövsiyələrin, tar və xalq çalğı alətləri ansamblı üçün köçürmələrin müəllifi kimi tanınır. Onun Üzeyir Hacıbəyovun "Tarın not ifaçılığında rolu", "Azərbaycan bəstəkarları və tarda not ifaçılığı", Nəriman Məmmədovun "Tar ilə simfonik orkestr üçün konsert", Səid RÜstəmovun

"Tar dərsliyi" haqqında elmi-publisistik məqalələri, ifaçılarımızın portretləri silisiləsindən məhşur tarzən Əhsən Dadaşov, Murtuz Mehdiyevə həsr etdiyi"Həyatı duyğularla görən sənətçi" ...məqalələri musiqi ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır" (5, s. 116). Qeyd edək ki, Afət Novruzov ənənələr prinsipini davam etdirən, ustad-şəyird münasibətlərinə önəm verən bir musiqişünas kimi öz ustadı Əhsən Dadaşov irsinə, fəaliyyətinə mühüm əhəmiyyət vermiş və nəticədə duyğular, hislər sözlərlə qovuşaraq adını çəkdiyimiz kitab ərsəyə gəlmişdir.

Bütün varlığı ilə sənətə, pedaqoji prosesə bağlı olan Afət müəllim uzun illərin araşdırmalarının nəticəsi olaraq 2002-ci ildə "Tarın ifaçılıq xüsusiyyətlərinin təkamülündə xarici və Azərbaycan bəstəkarlarının əsərlərinin rolu" mövzusunda dissertasiyaişini müdafiə edərək sənətşünaslıq üzrə elmi dərəcə almış, daha sonra isə Azərbaycan Milli konservatoriyasının dosenti elmi adını almışdır. Musiqi ictimaiyyəti, sənət dünyasında mahir pedaqoq, dəyərli ziyalı, təşəbbüskar alim, təşkilatçı, ifaçı-tarzən kimi tanınan Afət Novruzov öz əməlpərvər işi, fəaliyyəti ilə Azərbaycan milli musiqi sənətinin inkişafında, yaşadılmasında, musiqi təhsilinin təkmilləşdirilməsində, musiqi məktəblərinin müvafiq dərslik, metodik işlərlə təmin olunmasında mühüm xidmətlər göstərmiş, respublikanın qabaqcıl müəllimi kimi yaddaşlarda özünə abidə ucaltmışdır.

# NAZİM QULİYEV

XX əsr Azərbaycan incəsənəti tarixində özünəməxsus yeri, mövqeyi olan, Naxçıvan torpağının istedadlı yetirmələrindən biri də Nazim Quliyevdir. Nazim Quliyev 1950-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuş, 1957-ci ildə Naxçıvan şəhər 3 saylı məktəbdə təhsil almağa başlayır. Nazim Quliyevin uşaq yaşlarından musiqiyə, incəsənətə meyl etməsini tədqiqatçı Rəfail Kərimov iki səbəblə əlaqələndirir. Birinci olaraq qeyd edir ki, Nazimin dayıları Əkbər Qardaşbəyov, Abuzər Qardaşbəyov da musiqi, incəsənət sahəsində fəaliyyət göstərirdi və onun da kiçik yaşlarından bu mühitdə böyüməsi sənətə olan marağını artırmışdır. İkinci factor kimi isə onun təhsil aldığı məktəbdə Məmməd Məmmədovun dərs deməsi və onu da sənət yoluna həvəsləndirməsi olmuşdur. Məmməd Məmmədovun da dəstəyi, özünün bitməz həvəsi ilə Nazim Quliyev Pionerlər evində usta tarzən Səfər Rəcəbovun sinfində tar dərsi almağa başlayır, ardınca isə Naxçıvan şəhər uşaq musiqi məktəbində təhsilini davam etdirir. Buradakı qaynar mühit Nazimin musiqi dünyasını zənginləşdirməklə yanaşı onun sənətə bağlılığını da artırır. Belə ki bu illərdə burada Məmməd Məmmədov, Məmməd Ələkbərov, Sahib Axundov, Vahid Axundov, Rəşid Məmmədov, Səfər Rəcəbli kimi milli musiqimizin təəssübkeşləri fəaliyyət göstərirdi və Nazim də belə dəyərli sənətkarlardan ustad dərsi alır. Eyni

zamanda Nazim Quliyev Pionerlər evində “Əlvan çiçəklər” mahnı və rəqs ansamblında konsertmeyster kimi fəaliyyət göstərir, bu illərdə uğuru ilə yadda qalan Krımda keçirilən “Artek” pioneer düşətgəsindən ansambl nailiyyətlə qayıdırsa bunda Nazim Quliyevin də payı danılmazdır. Muxtar Respublikanın mədəni həyatında fəal çıxışını nəzərə alaraq Nazim Quliyev 1967-ci ildə yenicə yaradılan Culfa şəhər uşaq musiqi məktəbinə müəllim göndərilir. Qısa zamanda kollektivin dərin rəğbətini Nazim yalnız işgüzarlığı, sənət bağlılığı ilə qazanır. 1968-ci ildə Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbinin tar sinifinə daxil olan Nazim ifaçılıq sənətinin sirlərini burada dərindən öyrənməklə yanaşı hələ Naxçıvanda fəaliyyət göstərərkən başladığı musiqi əsərləri yazmaq işini də burada, bu illərdə təkmilləşdirir, bəstəkar kimi də incəsənət dünyasında özü dəsti-xəttini ortaya qoyur,  bu illərdə görkəmli bəstəkar İbrahim Mirzəzadədən bəstəkarlıq dərsi alır. Onun bəstəkar kimi ilk uğuru “Andiçmə” əsəri olur ki, bu əsər “Oxu tar” müsabiqəsində birincilik qazanır və görkəmli sənətkar İslam rzayevin ifasında dinləyicilərlə görüşür. Daimi axtarışlarda keçən sənətkar ömrü onu 1972-1974-cü illərdə ordubad şəhər uşaq musiqi məktəbində gətirir, sonar-1974-1978-ci illərdə Naxçıvan Televiziya və Radio Komitəsində musiqi redaktoru kimi çalışır, ilk dəfə olaraq rayon mədəniyyət şöbələrinin kollektivlərinin müsabiqəsini keçirir ki, bud a muxtar respublikada böyük səs doğurur. Təhsilini davam

etdirmək niyəti ilə Bakıya gələn Nazim quliyev 1978-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına qəbul olunur və görkəmli sənətkar Səid Rüstəmovdan dərs alır. Ali musiqi təhsilini başa vurduqdan sonar doğma Naxçıvana qayıdan Nazim müəllim 1983-1988-ci illərdə Üzeyir Hacıbəyov adına Naxçıvan şəhər Orta ixtisas Musiqi Məktəbində müəllim kimi pedaqoji fəaliyyət göstərərək gənc nəslin təlim-tərbiyyəsi, musiqi biliklərinin təkmilləşməsində uğurla çalışır. İndiki Naxçıvan Dövlət Universitetində musiqi kafedrasının 1988-1998-ci illərdə müdiri işləyən Nazim Quliyev daim pedaqoji prosesdə fəal iştirakı, təşəbbüs-karlığı, qayğıkeşliyi ilə tələbələrinin və kollektivin dərin hörmətini qazanır. Təşəbbüskarlığı ilə ilk dəfə yaradılan Naxçıvan Xalq Konservatoriyasının rektoru olan Nazim Quliyevin bu uğuru muxtar respublikanın mədəni həya-tında hadisə kimi dəyərləndirilə bilər. Məlum səbəblərdə fəaliyyəti dayandırılsa da Konservatoriya ənənə forma-laşdıra bilmişdi. Eyni zamanda onun muxtar respublika üçün gördüyü mühüm işlərdən biri də digər həmkarları ilə birlikdə Naxçıvanda Azərbaycan Bəstəkarlar Təşkilatının Naxçıvan şöbəsinin yaradılması olmuşdur. 1998-ci ildə Bəstəkarlar təşkilatı Naxçıvan Şöbəsinin sədri olan Nazim Quliyev 1999-cu ildə Bakıya gedir. Tədqiqatçı Rəfail Kərimov onun fəaliyyətinin Bakı dövrü haqqında yazır: “Nazim müəllim Bakı şəhərində də bir sıra mühüm vəzifələrdə, o cümlədən 1999-cu ildə M.Maqomayev

adına Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini, 2000-2004-cü illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin direktoru, 2004-2007-ci illərdə Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının direktoru vəzifələrində çalışmışdır" (5, s.123-124). Qeyd olunduğu kimi bir sıra mühüm əhəmiyyətli vəzifələrdə çalışmaqla yanaşı yaradıcılıq prosesindən də ayrılmayan sənətkar çoxsaylı əsərlər yazmışdır ki, bunlar içərisində ən dəyərlilərindən biri 20 Yanvar şəhidləri İlham və Fərizəyə həsr etdiyi, 2009-cu ildə tamamlanan operadır. Bir faktı da diqqət mərkəzinə çəkək ki, bu iki nakam aşiqin sevgi dastanından bəhs etmək Nazim Quliyevin milli təəssüb-keşliyinin, onun vətəndaşlıq missiyasının ifadəsidir. Ümumilikdə deyə bilərik ki, mənalı ömrünün böyük bir qismini təşkilati, pedaqoji fəaliyyətə həs edən Nazim Quliyev qibtə olunası hal budur ki, həm də elmi və musiqi yaradıcılığını da paralel olaraq davam etdirmişdir. Nəzərə alsaq ki, Nazim Quliyev 1 opera, 100-dən çox irili-xırdalı musiqi əsəri, bir neçə monoqrafiya, metodik və dərs vəsaiti, metodik göstəriş, proqram və s. müəllifidir, o zaman onun çoxşaxəli yaradıcılıq yolunun nə qədər məhsuldar olduğu müəyyənləşər. Nazim Quliyev ömür yolunu bütün dövrlərində doğma Naxçıvana dərin tellərlə bağlı olmuş, yaradıcılığı, fəaliyyəti ilə qədim diyarı vəsf etmiş, mədəni tərəqqiyə öz töhfəsini vermişdir. Haqqındakı tədqiqatlarda da deyildiyi kimi "Nazim

Quliyev uğurlu yaradıcılığı ilə diqqəti cəlb edir.onun simfonik orkestr üçün "Təntənəli"uvertüra, xalq çalğı alətləri orkestri üçün "nəqşi-cahan" süitası, qarışıq xor və orkestr üçün "Naxçıvan" kantatası, tar və simfonik orkestr üçün "Nəqşi-cahan" konserti, kamera orkestri üçün "Cavidi düşünərkən", fortepiano üçün "Naxçıvan eskizləri" süitası, variasiyalar, prelüdlər və s. əsərləri buna misal ola bilər. Bu əsərlərdə müəllifin doğma yurdu Naxçıvana sonsuz məhəbbəti, vurğunluğu açıq-aşkar özünü göstərir" (5, s. 124). Nazim Quliyev qeyd olunduğu kimi bütün mənalı həyatı ilə doğma Naxçıvana bağlı olmuş, vətənə sadiq övlad məhəbbəti ilə Naxçıvanı vəsf etmiş, mədəni tərəqqiyə, musiqi sənətinin inkişafına xidmətləri iə nümunə olmuşdur. Azərbaycanda musiqi mədəniyyətinin inkişafında mühüm xidmətləri ilə mədəni-tarixi yaddaşda öz yerini alan dəyərli sənətkarın fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək ona Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adı verilmişdir. Nazim Quliyev Azərbaycan Milli Konservatoriyanın dosenti kimi musiqi məəniyyətimizin inkişafı naminə mühüm xidmətlər göstərərək həm elmi yaradıcılığı, həm pedaqoji fəaliyyəti, həm musiqi əsərləri, həm də ictimai fəaliyyəti ilə Azərbaycan mədəniyyəti tarixində unudulmazlardan birinə çevrilmişdir.

# RƏFAİL KƏRİMOV

Naxçıvan torpağının istedadlı yetirmələrindən biri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, ifaçılıq sənətinin inkişafında özünəməxsus xidmətləri olan simalardan biri də rəfail Kərimovdur. Rəfail Kərimov 1949-cu ildə Naxçıvan şəhərində anadan olmuş, ilk təhsilini Naxçıvan şəhər 3 saylı məktəbdə almışdır. Kiçik yaşlarından musiqi sənətinə olan marağı nəticəsində Naxçıvan şəhərində bu illərdə yeganə olan uşaq musiqi məktəbinin tar sinfində oxumuşdur. Hələ bu illərdə Muxtar Respublikanın mədəni həyatında fəallığı ilə seçilmiş, musiqili tədbirlərdə fəallıq göstərmişdir. 1969-cu ildə Asəf Zeynallı adına Orta İxtisas Musiqi məktəbində xor-diirijorlu sinfinə qəbul olunmuş, tələbələik illərində məktəbdə müəllimlərin sevimlisinə çevrilmiş, böyük ümidlər verən istedadlı gənc kimi diqqəti cəlb etmişdir. Hələ Naxçıvanda təhsil aldığı illərdən Naxçıvan şəhərində, Culfa, Şahbuz rayonlarında müəllim kimi çalışmış, bununla yanaşı təhsilini artırmaq qayğısına da qalmış, 1980-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişdir. Rəfail Kərimov Naxçıvanda musiqi təhsili sahəsində uzun illər səmərəli şəkildə fəaliyyət göstərmiş, müəllim, məktəb direktoru vəzifələrdə çalışmaqla yanaşı Naxçıvan Muxtar Respublikası Mədəniyyət nazirliyinin aparat rəhbəri vəzifəsinə qədər yüksəlmiş, muxtar respublikanın mədəni həyatının

tərəqqisində nümunəvi xidmətləri ilə yaddaşlarda qalmışdır. Rəfail Kərimovun ömür və sənət yoluna nəzər saldıqda bir neçə məqam xüsusilə diqqəti cəlb edir. Belə ki, o, yaradıcı fəaliyyəti boyu muxtar respublikada çoxsaylı mədəni-kütləvi tədbirlərin təşkilatçısı, təşəbbüskarı, fəal iştirakçısı olmaqla yanaşı yüzlərlə istedadlı gəncin musiqi sənətinə yiyələnməsinə vəsilə olmuş, onun tələbələri ölkəmizin müxtəlif bölgələrində, müəssisələrində milli musiqi sənətimizi layiqli şəkildə təmsil etməklə yanaşı onun tələbələri Rəfail müəllim haqqında səmimi, həssas münasibətlərini ifadə etmişlər. Dəyərli sənət adamı eyni zamanda 1982-ci ildə Naxçıvan Muxtar Respublikası Xor Cəmiyyətinin sədri seçilmişdir ki, bu da onun fəaliyyətinə olan etimad və diqqətin ifadəsi kimi maraq doğurur. Rəfail Kərimov eyni zamanda zəhmətkeş tədqiqatçıdır. Onun uzun illərin zəhmətli, səmərəli axtarışlarının nəticəsi olan kitabları elmi dəyəri ilə fərqlənməklə yanaşı Naxçıvan Muxtar Respublikasının musiqi, mədəniyyət tarixinin öyrənilməsində qiymətli mənbə rolunu oynamışdır. Onun araşdırmaları nəticəsində Naxçıvan Muxtar Respublikasında adı unudulmaqda olan çoxlu mədəniyyət xadimləri, musiqiçilər, vokalistlər, ümumilikdə ifaçılıq sənəti tarixində xidmətləri olmuş şəxsiyyətlərin həyatı və fəaliyyət yolu aydınlığa qovuşmuşdur. Rəfail Kərimov bütün mənalı həyatını mədəniyyətimiz, incəsənətimizin inkişafına, yaşadılmasına, təbliğinə həsr etmiş, zaman-zaman milli musiqimizin inkişaf yolu,

görkəmli şəxsiyyətlərin həyatı, fəaliyyəti, sənət yolu haqqında Naxçıvan televiziyası və radiosuna müsahibələr vermiş, elmi-publisistik məqalələrində çoxlu dəyərli şəxsiyyətlərin həyat, sənət yolu təbliğ olunmuşdur.

Bütün varlığı ilə milli mədəniyyətimizin inkişafına, tədqiqinə, təbliğinə, Muxtar Respublikada mədəniyyət, incəsənətin inkişafına bağlı olan, bütün mənalı həyatını bu yolda keçirən dəyərli, zəhmətkeş sənət adamının fəaliyyətləri yüksək qiymətləndirilərək ona 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi fəxri adı verilmişdir. Bu gün Rəfail Kərimov Naxçıvan Muxtar Respublikası mədəniyyəti, incəsənti tarixində yaşamaqdadır. Yaşayacaqdır da.

# NURİYYƏ HÜSEYNOVA

Azərbaycan Respublikasının Əməkdar artisti, istedadlı müğənni, muğam ifaçısı Nuriyyə Hüseynova Naxçıvan torpağının Azərbaycan incəsənəti, mədəniyyəti tarixinə bəxş etdiyi dəyərli sənətkarlardandır. Tarixən Azərbaycan mədəniyyətinə mütəfəkkirlər, fikir adamları, alimlər, musiqiçilər bəxş edən Ordubad rayonunun Dırnıs kəndində 17 mart 1969-cu ildə dünyaya gələn Nuriyyə Hüseynova ilk təhsilini Dırnıs kənd orta məktəbində almışdır. Onun uşaq yaşlarından musiqiyə, ifaçılığa olan marağını görən müəllimi Əmiraslan müəllim onu kənd, rayonda keçirilən mədəni-kütləvi tədbirlərdə irəli çəkir, 1980-ci ildə Nuriyyə Hüseynovanın sənət yolunda əlamətdar bir hadisə baş verir. Bakı şəhərində keçirilən "Sarı bülbül"lər Birinci Respublika Muğam müsabiqəsində Nuriyyə öz repertuar seçimi, ifa mədəniyyəti, səs tembrinə görə birincilik qazanır. Qürurverici olan budur ki, bu zaman yeniyetmə ifaçını dəyərləndirən Maestro Niyazi, Vasif Adıgözəlov, İslam Rzayev kimi korifey sənətkarlar olur. Bununla da qalınmır, Azərbaycan mədəniyyətinin hamisi, ulu öndər Heydər Əliyevin tövsiyəsi ilə Nuriyyə Hüseynova 1982-ci ildə Bülbül adına Musiqi Məktəbində təhsil almağa dəvət alır. Müəllimlər İslam Rzayev, Şövkət Ələkbərova, Arif Babayevin böyük ümidlər bəslədiyi gənc müğənni1982-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyət günləri,

1983-cü ildə Səmərqənddə keçirilən Üçüncü ümumdünya musiqi simpoziumunda ona bəslənən ümidləri doğruldur, respublikamızı uğurla təmsil edir. Artıq ölkə səviyyəli bir sıra konsertlərdə, tədbirlərdə öz məlahətli səsi ilə dinləyiciləri valeh edən Nuriyyə Hüseynova təhsilini davam etdirmək məqsədi ilə 1987-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının muğam şöbəsinə daxil olur. 1992-ci ilə- konservatoriyanı bitirənə qədər Nuriyyə İslam Rzayevdə muğam sənətinin bütün incəliklərini öyrənməklə yanaşı bir sıra mədəni-kütləvi tədbirlərdə də fəal iştirakı, ifaçılıq mədəniyyəti, sənət texnikası ilə seçilir. Konservatoriyanı bitirdikdən sonra Nuriyyə Hüseynova pedaqoji fəaliyyətlə məşğul olur, yetişməkdə olan istedadlı nəslə milli musiqi mədəniyyətimizin sirlərini həvəslə öyrədir. Belə ki, o, Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində, Mədəni-m arif texnikumunda, Bülbül adına Musiqi Məktəbində, 2000-ci ildən isə Azərbaycan İncəsənət Universitetində müəllim kimi səmərəli fəaliyyət göstərərək çoxsaylı gənc istedadın yoluna işıq sala bilmiş, bir müəllim kimi yüksək insani keyfiyyətləri ilə yaddaşlarda qalmışdır. Görkəmli müğənni, muğam ifaçısı Nuriyyə Hüseynovanın ömür və sənət yolundan bəhs edən Rəfail Kərimov onun pedaqoji fəaliyyətindən, sənət axtarışlarından bəhs edərkən yazır: "Müəllimlik peşəsi Nuriyyə Xanım üçün nə qədər əziz olsa da o, bir an da olsun şəxsi yaradıcılığına ara verməmiş və daim öz üzərində çalışaraq xanəndəlik

sənətini püxtələşdirməyə çalışmışdır. Təsadüfi deyil ki, xanəndə 1995-ci ildən solist olduğu "Qədim musiq alətləri" ansamblında uğurlu yaradıcılıq fəaliyyəti ilə bu gün də tamaşaçıların diqqətini cəlb etməkdədir. Dəyərli sənətkarın ansamblın tərkibində böyük uğurlara imza atması, bu ansamblın tərkibindki uğurları tədqiqatlarda, mətbuat səhifələrində xoş xatirələrlə qalmaqdadır: "Nuriyyə Hüseynova ansamblın tərkibində bir çox dövlət tədbirlərində çıxış etmişdir. 2002-ci ildə Fransanın Paris və Strasburq şəhərlərində "UNESCO"-nun tədbirlərində konsert proqramı ilə Azərbaycan musiqi sənətini uğurla təmsil etmiş, ansamblın ifasında "UNESCO" tərəfindən kompakt-disk buraxılmışdır. O, ansambl ilə birgə 2005-ci ildə Düşənbədə keçirilən "Qəlblərin səsi" festivalında, İstanbul şəhərində "İslam ölkələrinin mədəniyyət həftəsi" çərçivəsində təşkil edilmiş mədəni proqramlarda yüksək səviyyədə çıxış etmişdir" (20). Xanəndə ansamblın müşayiəti ilə yüzlərlə mahnı, təsnif və muğam dəsgahları ifa etmiş, sənət baxımından ən layiqlilərini isə "Mənim dünyam", "Həsrətindən", "sengilimə könül açdım", "Tanrıdan dilədim", "Oxu gözəl" və s. albomlar vasitəsi ilə dinləyicilərə ərmağan etmişdir" (5, s. 143). Tanrının verdiyi istedadı milli musiqi sənətimizin təbliğinə, yaşadılmasına, inkişafına sərf edən görkəmli sənətkarın ifaları dinləyiciləri məftun etmək gücündədirsə bu dəyərli xanəndənin özünəməxsus səs diapozonu, ifaçılıq mədəniyyəti, özünüyetişdirmə məharətinin bəhrələridir.

Nuriyyə Hüseynova bu gün ölkəmizin musiqi, mədəni həyatının aparıcı simalarından biri kimi qəbul olunrsa bu onun əzmkarlığı, vicdanlı əməyinin məhsulu hesab edilməlidir. İstedadlı muğam ifaçısı, sevilən müğənninin yaradıcılıq uğurlarının hər biri milli mədəniyyətimizi, Azərbaycan incəsənəti və musiqisinin dünya səviyyəsində təbliğinə xidmət etdiyini diqqətə alaraq onun müstəqillik illərində dünya səviyyəli mədəni-kütləvi tədbirlərdə layiqli şəkildə iştirakının müəyyən detallarına nəzər salmaq yerində olar. Belə ki, Nuriyyə Hüseynova "2014-cü ildən bu günə kimi Azərbaycan MEA-nın Folklor İnstitutunun "Dədə Qorqud" ("İrs") ansamblının rəhbəri çalışır.Nuriyyə Hüseynova ansamblın tərkibində bir çox dövlət tədbirlərində çıxış etmişdir.2002-ci ildə Fransanın Paris və Strasburq şəhərlərində "UNESCO"-nun tədbir-lərində konsert proqramı ilə Azərbaycan musiqi sənətini uğurla təmsil etmiş, ansamblın ifasında "UNESCO" tərəfindən kompakt-disk buraxılmışdır.O, ansambl ilə birgə 2005-ci ildə Düşənbədə keçirilən "Qəlblərin səsi" festivalında, İstanbul şəhərində "İslam ölkələrinin mədə-niyyət həftəsi" çərçivəsində təşkil edilmiş mədəni proq-ramlarda yüksək səviyyədə çıxış etmişdir.2018-ci ildə UNESCO-da Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (Türksoy) 25 illiyi ilə əlaqədar konsertdə çıxış edib.2019-cu ildə İstanbulda keçirilən Azərbaycan Kültür Dərnəyinin yaranmasının 80 illiyi ilə əlaqədar konsertdə çıxış edib.2019-cu ildə Türkiyənin Şanlıurfa şəhərində keçirilən

"Müziğin İzinde 4 Kardeş Şehir" adlı konsertdə və Türkiyənin Camal Rəşid Rey adına İstanbul konsert salonunda konsertdə çıxış edib. Nuriyyə Hüseynova həmçini ABŞ-ın Çiqaqo və Miçiqan ştatlarında uğurlu solo konsertlər verib. 2016-cı ildə TÜRKSOY-un təşkil ediyi Türkəmistanın Marı şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı seçildiyinə görə konsertdə uğurlu çıxışına görə Türkmənistanın ölkə başçısı Qurbanqulu Berdiməhəmmədov tərəfindən xüsusi mükafatına layiq görülüb.2014-cü ildən Türkiyənin Ankara şəhərinin Yunus Əmrə bələdiyyəsi ilə əməkdaşlıq edərək ənənəvi olaraq hər il keçirilən konsertlərdə çıxış edir.Nuriyyə Hüseynova 2002-ci ildən Türkiyə, İran, Rusiya, Dubay, Şarja, İordaniya, Küveyt, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Özbəkistan, Fransa, Almaniya, Rumıniya, Vyana, İsveçrə, Amerika, Kanada, Hindistan, Koreya və dünyanın əksər ölkələrində konsertlərdə Azərbaycan musiqisini uğurla təbliğ etmişdir" (21). Bu qədər məhsuldar yaradıcılıq yolu, bitməz enerji ilə musiqi sənətini, muğamlarımızı dünyada tanıdan sənətkar Naxçıvan torpağının Azərbaycan mədəniyyətinə bəxş etdiyi əvəzsiz xəzinədir desək, yanılmarıq.

Özünəməxsus ifaçılıq tərzi, səhnə mədəniyyəti ilə diqqəti cəlb edən Nuriyyə Hüseynovanın çoxşaxəli fəaliyyətinin mühüm tərkib hissələrindən birini də aktyorluq təşkil edir. Belə ki, sevimli xanəndənin "Cavad xan" filmində canlandırdığı Şükufə xanım obrazı onun haq-

qında aktyor kimi bitkin fikir deməyə əsas verir. 2009-cu ildə Sabir Rüstəmxanlının ssenarisi ekranlaşdırılan filmdə Nuriyyə xanımın yaratdığı obraz bütün cizgiləri ilə səhnəmizda yadda qalan hadisə olmuşdur.

Nuriyyə Hüseynovanın sənət uğurları, yaradıcılıq axtarışları davam etdikcə ecazkar səsi nəinki ölkəmizdə ölkədən kənarda da çoxsaylı dinləyicilə çatır. Milli musiqimizi layiqli şəkildə təmsil edən Nuriyyə Hüseynova Azərbaycan musiqisini Amerika Birləşmiş Ştatları, Almaniya, Fransa, Türkiyə, Macarıstan, İran İslam Respublikası, İordaniya və s. kimi dünya ölkələrindəki möhtəşəm konsert proqramlarında uğurla təmsil etmişdir. Bu silsilədə qeyd olunası informasiyalardan biri də Nuriyyə Hüseynovanın Kanadada konsert proqramı ilə çıxışıdır. Belə ki, mətbuat səhifələrində qeyd olunur ki, "Azərbaycanın əməkdar artisti Nuriyyə Hüseynovanın Torontoda konserti uğurlu keçib... Nuriyyə Hüseynovanın konserti ilə geniş əhatəli mədəni tədbirlər silsiləsinin təməlinin atılıb" (22)

Nuriyyə Hüseynovanın ifasında özünəməxsus dəsti –xətlə, fərdi ifaçılıq məharəti ilə ifadəsini tapan "Şüştər" muğamı yaddaşlaşmış ifa tərzi kimi qəbul olunmaqdadır. Bu mənada Nuriyyə xanımın muğam ifaçılığı sahəsindəki mühüm xidmətini göz önünə çəkən tadqiqatda oxuyuruq: ""Şüştər" tərcümədə dünya, kainat mənasını daşıyır. Bu baxımdan da ifaçı kainatı, dünyanı sanki canlandırmalı və bunu xarakter etibarilə dinləyiciyə düzgün çatdırmalıdır.

Üzeyir Hacıbəyov “şüştər” haqqında yazırdı ki, bədii-ruhi cəhətdən bu muğam dinləyicidə dərin kədər hissi oyadır. “Şüştər”i dinlədikcə insan xəyala dalır, düşünür, etiraz hisləri keçirir.” (5, s. 144). Xanəndə Nuriyyə Hüseynovanın məhz “Şüştər” ifaçılığına diqqəti cəlb edən tədqiqatçı vurğulayır ki, “”Şüştər” dəsgahının ifa xüsusiyyətinin incəliklərini sizlrə təqdim etməkdə məqsədim xanəndə Hüseynovanın yaradıcılıq tərzini, onun ifaçılıq məharətini göstərkəmdir” (5, s. 144). Faktın timsalında deyə bilərik ki, Nuriyyə Hüseynovanın muğam ifaçılığında formalaşdırdığı ənənələr, özünəməxsus səhnə mədəniyyəti, mədəni həyatımızda, musiqi dünyamızın tərəqqisindəki xidmətləri, pedaqoji fəaliyyəti, ümumilikdə milli incəsənətimizn inkişafı naminə gördüyü işlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Əməkdar artist adına layiq görülməsi də, 2010-cu ildə Prezident mükafatına layiq görülməsi də istedadlı xanəndə, özünəməxsus ifa xüsusiyyətləri ilə xalqın sevimlisinə çevrilən Nuriyyə Hüseynovanın sənətinə verilən ən böyük qiymətdir. Qeyd edək ki, Nuriyyə Hüseynovanın çoxcəhətli yaradıcılıq yolu, ömür yolu mətbuatın daim diqqət mərkəzində olmuş, onun ömür yolundan, sənət uğurlarından bəhs edən onlarla məqalələr, kitablar yazılmışdır. Bu səpkili tədqiqat yönümlü kitablar içərisində Rasim Gəncəlinin "Qəlbi asiman kimi" və Teymur Bünyadovun "Sən olmasaydın" adlı kitablarını xüsusilə qeyd etmək gərəyindədir. Belə ki,

bütün varlığı ilə bağlı olduğu sənətdə coşğun enerji ilə milli mədəniyyətimizin təbliğatçısı, muğam sənətinin dərin bilicisi olan Nuriyyə Hüseynovanın yaradıcılıq yolunda rəhbəri olduğu Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Dədə Qorqud" ("İrs") ansamblının, eləcə də "Qədim Musiqi Alətləri" ansamblının xüsusi yeri vardır.

Azərbaycan Respublikasının Əməkdar artisti Nuriyyə Hüseynova həyatı və fəaliyyətinin bütün dövrlərində doğulub böyüdüyü doğma Naxçıvana dərin tellərlə bağlı olmuşdur. Milli düşüncəli sənətkar sadiq övlad məhəbbəti ilə yanaşdığı Naxçıvana, muxtar respublikada mədəni tərəqqiyə əlindən gəldikcə dəstək olmuşdur ki, bunu çıxış və müsahibələrində dönə-dönə ifadə etmişdir. Naxçıvana-vətənə övladlıq borcu kimi yanaşdığı, gənc istedadlarla görüşü-ustad dərsini də bu qəbuldən saymaq olar. Muxtar Respublikada keçirilən bu möhtəşəm görüş haqqında oxuyuruq: "Milli musiqimizi, muğam və xalq mahnılarımızı öz məlahətli səsi ilə dinləyicilərə sevdirən sənətçimiz, Azərbaycan Respublikasının Əməkdar Artisti Nuriyyə Hüseynovanın Naxçıvan Dövlət Filarmoniyasında keçdiyi ustad dərsi böyük maraqla qarşılanıb. ...ustad dərsində muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Musiqi Kollecinin tələbələri, Naxçıvan Dövlət Filarmoniyasının solistləri iştirak

ediblər. Azərbaycan Respublikasının Əməkdar Artisti Nuriyyə Hüseynova bildirib ki, xalqımız tərəfindən milli özünüdərkin ən mühüm mədəni dəyərlərindən biri kimi qəbul edilən qədim muğam sənəti bu gün ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında layiqincə qorunur, yaşadılır və təbliğ olunur. Çünki muğam yalnız dünənin və bu günün deyil, həm də gələcəyin musiqisidir…O, Naxçıvanda muğam sənətinin daim inkişaf etdirildiyini, gələcəkdə muğamın Naxçıvan məktəbinin də böyük şöhrət qazanacağına əminliyini bildirib" (23).

Bəli əsl vətəndaşlıq, milli qayəyə xidməti özünə yol seçən, Azərbaycan mədəniyyətini, incəsənətini, nusiqisini dünya səviyyəsində tanıdan, sevdirən istedadlı muğam ifaçısı, pedaqoq, gözəl səsi ilə milyonların könlünü fəth edə bilən sənətkar-Nuriyyə Hüseynova tanrının verdiyi ömrü də, fitri istedadı da xalqının, milli mədəniyyətinin yaşadılması, inkişafı yolunda sərf etməklə mədəniyyət tariximizdə, xalqımızın yaddaşında böyük bir abidə ucaltmışdır. Naxçıvan torpağının Azərbaycan mədəni xəzinəsinə bəxş etdiyi dəyərli sənətkar Kamil Həmzəoğluna verdiyi müsahibədə öz həyat amalını, düşüncələrini bu sözlərlə ifadə edirdi: "hər kəs bilməlidir ki, bu dünya, bu cəmiyyət, bu bəşəriyyət bu gün ağlı başında olan, normal, düzgün, haqqın, Allahın qoyduğu qanunlara riayət edən insanların çiynində yürüyür" **(24).**

# NƏTİCƏ

Tarixi Azərbaycan torpağı olan Naxçıvan qədim tarixi, zəngin milli-mədəni irsi ilə bəşər sivilizasiyasının ən qədim yaşayış məskənlərindən biri kimi qəbul olunmaqdadır. Bu əsrarəngiz torpaqda yaradılan, yaşadılan zəngin mədəni irs dünya mədəni xəzinəsinin ən dəyərli incilərindəndir. Beş min illik şəhər mədəniyyətinə sahib olan Naxçıvanda Gəmiqaya rəsmləri ilkin mifoloji düşüncənin daşıyıcı olmaqla yanaşı bu diyarda musiqi, rəqs haqqında da ilkin informasiyaları da özündə mühafizə edir. Tədqiqatlar da göstərir ki, Gəmiqaya qayaüstü rəsmlərində musiqi və rəqs sənəti haqqında verilən informasiyalar bu torpağın əzəli sakinləri olan türk etnoslarının milli mədəniyyətinin daşıyıcısıdır. Bəllidir ki, köklü ənənələr üzərində formalaşan mədəni xəzinəmiz orta əsrlərdə də inkişaf etdirilmişdir. Azərbaycan Atabəylər dövlətinin paytaxtı kimi Şərq intibahına böyük töhfələr verən, əsas mərkəz rolunu oynayan Naxçıvanda Əcəmi Naxçıvani sənəti memarlıq və incəsənətin zirvəsi sayılmaqdadır. Bu günün uzaqlığında altı yüz illik dövlətçilik təcrübəsi olan Osmanlı sarayında fəaliyyət göstərən çoxsaylı naxçıvanlı mütəfəkkir, alim, təbib, şair, musiqiçilərin adı çəkilirsə fakt özlüyündə bu müqəddəs torpaqda güclü elmi, ədəbi, mədəni həyatın olduğunu təsdiqləməkdədir. Bu mənada naxçıvanlı nisbəsi ilə tanınan, orta əsrlərdə yaşayıb fəaliyyət göstərən fikir

adamları içərisində musiqiçilər, xanəndələrin olması Naxçıvanda musiqi sənətinə verilən dəyərin ifadəsi olmaqla keçilən yolun öyrənilməsi zərurətini də ortaya qoyur.

Naxçıvan Muxtar Respublikasında musiqi mədəniyyətimizin köklü ənənələri, zəngin təcrübəsi, uğurlu inkişaf yolu vardır. Bu yol Naçıvan torpağının görkəmli yetirmələrinin fəaliyyəti ilə müəyyənləşərək milli musiqimizi qorumaq, yaşatmaq və gələcək nəsillərə çatdırmağa xidmət etmişdir. Belə ki, Naxçıvanda ümumilikdə musiqi sənətində olduğu kimi ifaçılıq sənətinin də dinamik inkişaf yolu və dəyərli simaları öz əməli fəaliyyətləri ilə adlarını mədəniyyət tariximizə yazmışdır. Ümumilikdə mədəniyyət tariximizdə olduğu kimi Naxçıvan Muxtar Respublikasında da ifaçılıq sənətinin inkişafını şərtləndirən bir neçə mərhələ tədqiqatlar zamanı müəyyənləşmişdir. Bu şərti təsnifləndirməyə əsaslanaraq deyə bilərik ki, Naxçıvanda ifaçılıq sənətinin bünövrələrindən birini aşıq sənəti, aşıqların yaradıcılığında təşəkkül tapan ifaçılıq ənənələri təşkil edir. Qeyd edək ki, Azərbaycanda aşıq sənətinin qədim tarixi olduğu kimi Naxçıvanda da aşıq mühitinin ənənələri və dəyərli simaları sənəti yaşadaraq günümüzə çatdırmışdır. Kosacanlı Ağ Aşığı yetirən Naxçıvan torpağında Aşıq Nabat kimi qadın sənətkarlar da yetişmişdir. XIX əsrin sonu-XX əsrin əvvəllərində aşıq ədəbi məclislərinin daha geniş planda fəaliyyət göstərməsi, aşıq ifaçılığının təməlləri üzərində ifaçılıq sənətinin tərəqqi tapması

böyük bir mədəni hadisə kimi qiymətləndirilə bilər. İfaçılıq sənətinin Naxçıvanda inkişafını şərtləndirən bir başqa istiqamət isə köklü gələnəkləri olan, Şərq musiqisinin köklərindən olan muğam ifaçılığıdır. Milli mədəniyyətimizin kodlarından olan muğam sənəti XIX-XX əsrlərdə "Şərq üçlükləri" şəklində daha geniş auditoriya tapmış, el şənlikləri, mərasimlərində, bayramlarda, əlamətdar günlərdə ifa olunaraq həm sənət yaşadılmış, həm insanların mənəvi ehtiyacının ödənməsinə hesablanmış, həm də varislik prinsipi ilə nəsildən-nəsilə keçərək ustad-şəyird münasibətləri müstəvisində muğam ifaçılıq məktəbləri yaranmış, fəaliyyət göstərmişdir.

Qeyd olunan aşıq ifaçılığı, muğam ifaçılığı kimi ənənəvi ifaçılıq istiqamətləri ötən əsrin əvvəllərindən etibarən təkmilləşmə yolu keçmiş, cilalanaraq dövrə uyğunlaşdırılmışdır. XX əsrin 30-40-cı illərində artıq müxtəlif mədəni müəssisələrin tərkibində, dahi Üzeyir bəyin təşəbbüsü ilə yaradılan ilk uşaq musiqi məktəbində, pionerlər evində, yaxud fərdi təşəbbüslərlə müxtəlif musiqi kollektivləri yaradılmışdır. Bu kollektivlərin tərkibində ifaçılıq sənəti inkişaf edərək yeni, profesional dəyərlər əxz etdiyi kimi, bu birliklərdə, mədəniyyət və tədris müəssələrində gənc istedadların musiqi sənətini dərindən mənimsəməsi işinə də diqqət yetirilmiş, nəticə olaraq qısa zamanda ixtisaslı, sənətin elmi əsaslarını mənimsəmiş ifaçılar nəsli yetişib formalaşmışdır. Bu aspektdən yanaşaraq qeyd edək ki, ilk təşəbbüslər kimi

xüsusi əhəmiyyət daşıyan xalq çalğı alətləri ansamblı, "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı, orkestrlər, xor kollektivləri, "Araz" dövlət mahnı və rəqs ansamblı, "Nəqşi-cahan" vokal instrumental ansamblı, Radio Komitəsinin tərkibində, uşaq musiqi məktəbində, pionerlər evində vəs. yaradılan şərq üçlükləri milli musiqimizi yaşadan, inkişaf etdirən mühüm musiqi birlikləri olmaqla yanaşı ifaçılıq sənətini də yeni inkişaf səviyyəsinə çatdırmışdır. Bu məqamda bir faktı da diqqət mərkəzinə çəkmək gərəyi vardır. Belə ki, ötən əsrin əvvəllərindən etibarən yaradılan musiqi kollektivlərində zamanla ifaçılıq sənətinin sütunları olan aşıq ifaçılığı ilə şərq ifaçılığı-muğam ifaçılığı qovuşaraq milli musiqi sənətimizi təmsil etmişdir. Milli musiqi alətlərimizin ansambl, orkestr və digər birliklərdə təmsil olunması ilə yanaşı mütərəqqi hal ondan ibarət idi ki, bu illərdən etibarət bu musiqi birliklərində dünyəvi musiqiyə, dünyəvi musiqi alətlərinə də geniş yer verilmişdir ki, bu da milli musiqimizi bəşəriliyə götürən yolun başlıca şərtlərindən biridir.

Uzun bir tarixi yol keçən Naxçıvan ifaçılıq sənətinin, məktəbinin çoxsaylı istedadlı nümayəndələri yetişib formalaşmış, milli musiqimizi yaşatmaq, inkişaf etdirməklə yanaşı doğma Naxçıvanımızı, Azərbaycan musiqisini dünya səviyyəsində tanıtmış və təbliğ etmişlər. Naxçıvan torpağında doğulub boya-başa çatan ifaçılıq sənətinin dəyərli nümayəndələrindən bəhs edərkən bir məqamadiqqət etmək lazımdır ki, bu da bəhs olunan

sənətkarların bir qismi təhsil aldıqdan sonra Naxçıvana qayıdaraq Naxçıvan şəhəri və rayonlarda, kəndlərdə musiqi məktəblərində pedaqoji prosesə başlamış, yaxud mədəni müəssisələrdə, musiqi dərnəklərində, kollektivlərində fəaliyyət göstərməklə milli ifaçılıq sənətimizi yaşatmış, öyrətmişdirsə, digər bir qisim sənətkarlar isə Bakı və ölkəmizin müxtəlif şəhərlərində musiqiçi kimi fəaliyyət yolu seçərək Azərbaycan musiqisini ölkəmizdə və ölkədən kənarda uğurla təmsil etmişlər. Bu mənada naxçıvanlı ifaçılar, musiqiçilər, musiqişünaslar haqqında danışarkən ilk növbədə onların yaradıcı fəaliyyətində Naxçıvan faktoruna diqqət çəkməyi qarşımıza məqsəd qoymuşuq.

Naxçıvan torpağını yetirməsi olan, ifaçılıq sənətini, milli musiqi mədəniyyətimizi uğurla təmsil, təbliğ edən xanəndə səttar, Cəfər, Məşədi Əsəd, Həsənqulu, İdris Nağıyev, Kamil Abdullayev, Mənsurə Ələkbərova, Şulan Ələkbərov, Mənsur Sultanov, Adil Kəngərli, Heydər Təhmasib, Zərqələm Cavadova, Firuzə Əlixanova, Həcər Seyidova, Qönçə Seyidova, Nəriman Məmmədov, Əsgər Əsgərov, Vahid Axundov, Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Səfər Rəcəbli, Nazim Kazımov, Kamil Əliyev, Abdulla Abdullayev, Əkrəm Məmmədov, Tapdıq Bağırov, Qurban Qasımov, Nazim Quliyev, Abdulla Babayev, Məmməd Hümbətov, Rəfail Kərimov, Yaşar Səfərov, Əli Muradov, Elburus Mehdiyev, Məmməd Nəsirbəyov, Atəf Novruzov,

Müsəvvər Əsgərov,Məhərrəm məmmədov, İdris Səlimov, Çingiz Axundov, Tariyel Abbasov, Elman Əliyev, Yusif Babayev, Yusif Əliyev, Sahib Axundov, Səidə Məmmədova, Arif Quliyev, Dilqəm Məhərrəmov, Hünər Əliyev, Məmməd Cavadov, Adıgözəl Əliyev, Tağı Tağıyev, Əbülfət Babayev, Vidadi Heydərov, Zeynalabdin Babayev, Şəmsəddin Qasımov, Həsənağa Qurbanov, Mübariz Əsgərov və s. çoxsaylı nümayəndələri Naxçıvanda milli incəsənətimizin fədakar xidmətçiləri olmaqla yanaşı, ifaçılıq sənətinin inkişafında da əvəzsiz xidmətlər göstərərək öz adlarını mədəniyyət tariximizə yazmışlar. Eyni zamanda fəxr olunası haldır ki, Elburus Mehdiyev, Məmməd Nəsirbəyov, Yaşar Səfərov və digər çoxsaylı ifaçı sənətkarlarımız Azərbaycan musiqisini ölkəmizdə də, ölkəmizdən kənarda da layiqli şəkild, uğurla təmsil etmişlər. Bu gün Naxçıvan Muxtar Respublikasında 30-a yaxın uşaq və orta ixtisas musiqi məktəbi fəaliyyət göstərirsə, Mədəniyyət Nazirliyinin tabeliyində filarmoniya öz işini uğurla davam etdirirsə, Naxçıvan Dövlət Universitetinin tərkibində konservatoriya Muxtar Respublikanı mükəmməl kadrlarla təmin edirsə, çoxsaylı misi birlikləri, kollektivləri öz fəaliyyətlərini davam etdirirsə, ölkə və dünyada bir sıra mədəni-kütləvi tədbirlərdə Naxçıvan musiqi sənətini, mədəniyyəini uğurla təmsil edirsə, bütün bunlar Naxçıvanda digər sahələrlə bərabər uğurla həyata keçirilən mədəniyyət siyasətinin bəhrələri olmaqla yanaşı adlarını çəkdiyimiz dəyərli sənətkarların

milli mədəniyyətimiz naminə fəaliyyətinin də bu istiqamətdə böyük rolu danılmazdır. Bu gün Naxçıvanda yüksək inkişaf səviyyəsinə çatan mədəniyyət siyasətinin tərkib hissəsi kimi ifaçılıq sənəti də öz köklü ənənələri üzərində daim inkişaf edir, musiqi tariximizi yaşadır, yaşadacaqdır.

## Ədəbiyyat siyahısı


1. Azərbaycan qəzeti, 4 aprel 2010, s. 7
2. Azərbaycan müəllimi qəzeti, 13 iyun 2014, s. 8.
3. Xalq qəzeti, 7 noyabr 2007, s. 6
4. Kərimov Rəfail. Naxçıvvan musiqi mədəniyyəti tarixindən-vokal ifaçılıq sənəti. Bakı: Azərnəşr, 2006, 96 s.
5. Kərimov Rəfail. Naxçıvan musiqi mədəniyyəti tarixindən-musiqi təhsili. Bakı: Azərnəşr, 2012, 160 s.
6. Qasımov Əli Səbri. Ömürdən yarpaq düşür. Bakı: Gənclik, 1983, 168 s.
7. Qəhrəmanov Ə. İfaçiliq sənəti: təkamül yolları. Axtarışlar. AMEA NB İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Axtarışlar jurnalı, 2016, №4, s. 154-161
8. Qulamova Jalə. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalarında musiqinin rolu və əhəmiyyəti. Bakı: Mars-print, 2011, 200 s.
9. Quliyev Nazim. Naxçıvan musiqi mədəniyyəti tarixindən (XX əsr). Bakı: Elm, 1999, 140 s.
10. Məmməd Nəsirbəyov-120. (Hazırlayan-Tofiq Bakıxanov, Nazim Quliyev). Naxçıvan: Əcəmi, 2017, 76 s.
11. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafının müasir probelmləri. Bakı: Diplomat nəşr, 1998, 135 s.
12. Naxçıvan ensiklopediyası. Bakı: AZ Milli ensiklopediya mərkəzi, 2012, 594 s.

13. Şuşinski F. Xan Şuşinski. Bakı: İşıq, 1989, 100 s.
14. Şərq qapısı qəzeti, 13 may 1959.
15. Vəliyev S., Axundov A. Naxçıvan ziyalıları, elm-sənət fəadiləri. Bakı: Ləman MMC, 2017, 456 s.
16. Vəzirov C. Əliyeva L. Sözlü nəğməli Naxçıvan. Bakı: Sabah, 2003, 140 s.
17. http://www.aqra.az/az/elbrus-abbasqulu-oglu-mehdiyev/
18. https://axar.az/news/layiheler/69386.html
19. https://azertag.az/xeber/Hesenaga_Qurbanovun_anadan_olmasinin_60_illiyi_qeyd_olunub-904711
20. https://1news.az/az/news/az-rbaycan-n-m-kdar-artisti-nuriyy-h-seynova-t-rksoy-un-x-susi-m-kafat-na-layiq-g-r-l-b
21. https://1news.az/az/news/az-rbaycan-n-m-kdar-artisti-nuriyy-h-seynova-t-rksoy-un-x-susi-m-kafat-na-layiq-g-r-l-b
22. https://www.gunaz.tv/az/xeberler/arxiv/nuriyye-huseynova-kanadada-konsert-verib-26495
23. https://azertag.az/xeber/Amekdar_Artist_Nuriyye_Huseynova_Naxchivan_Dovlet_Filarmoniyasinda_ustad_dersi_kechib-900675
24. https://525.az/site/?name=xeber&newsid= 19968#gsc.tab=0

Çapa imzalanmışdır: 04.05.2021
Formatı: 60x90, 16/1, həcmi: 5.6 ç/v.
Tiraj: 150, sifariş №148
NDU-nun “Qeyrət” nəşriyyatının mətbəəsində çap olunmuşdur.